## 90 İL "MƏRHƏMƏT KEŞİYİNDƏ"




# İLLİK HESABAT 2010

## AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİ 1920

# Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tarixində əlamətdar il

Bu ilin əlamətdar olması Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaradılmasının 90 illik yubileyinin keçirilməsi ilə səciyyələnirdi.

90 il şərəfli tarixi yol keçmiş Azərbaycan Qızıl Aypara Cəmiyyəti yarandığı ildən hər zaman insanlara təmənnasız sosial-tibbi xidmətlər göstərmiş, onların üzləşdiyi çətinliklərin aradan qaldırmasına yardımçı olmuş, zərərşəkmişlərə yardımlar etmişdir. Bu fəaliyyət uzun illərdən bəri daha da təkmilləşərək Beynəlxalq Hərəkatın inkişafına öz töhfəsini vermişdir.Müasir dövrümüzdə Cəmiyyətimizin daha da inkişaf etməsinə əsas səbəb dövlət başçısının müvafiq fərman və sərəncamları ilə öz hüquqi bazasını daha da möhkəmləndirmiş Milli Cəmiyyətin daim dövlətin qayğısı ilə əhatə olunmasıdır. Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü cənab İlham Əliyev hər zaman Cəmiyyətimizə qayğı ilə yanaşmışdır. “Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında” qəbul edilmiş Qanun, “Qızıl Aypara Gününün təsis olunması”, Nazirlər Kabinetinin müvafiq sərəncamları bunun bariz nümunəsidir.



90 illik Yubiley münasibətilə 2010-cu il martın 4–də Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev 16 nəfər əməkdaşımızı “Tərəqqi” medalı ilə, Cəmiyyətin prezidentini 3-cü dərəcəli “Vətənə Xidmətə görə” ordeni ilə təltif etmişdir.

Cəmiyyətin Katibliyi tərəfindən yubileylə bağlı geniş tədbirlər planı hazırlanmış və bu tədbirlər respublikanın bütün bölgələrini əhatə etmişdir. Regional mərkəz və yerli bölmələr respublikanın bütün şəhər və rayonlarında kütləvi tədbirlər keçirmişdir. Tədbirlərdə yerli təşkilat və müəssisə nümayəndələri fəallıq göstərmişlər. Cəmiyyətin prezidenti müxtəlif rayonlarda icra hakimiyyəti başçıları ilə birgə tədbirlərdə iştirak etmişdir. Bu tədbirlərə ictimaiyyətin nümayəndələri də qatılmışlar.

Mart ayının 10-da Bakı şəhərindəki möhtəşəm Mədəniyyət Mərkəzində təntənəli yubiley mərasimi keçirildi. Bu mərasimdə hökumət strukturlarının, yerli və xarici təşkilatların nümayəndələri, millət vəkilləri və digər qonaqlar iştirak etmişlər. Azərbaycan Respublikası Milli Məclisinin sədri cənab O. Əsədov ayparaçılara xüsusi təbrik ünvanlayaraq xoş arzularını çatdırmışdır. Demək olar ki, bütün hökumət strukturları və digər təşkilatların rəhbərləri bizi məktub və teleqramlar vasitəsilə təbrik etmişlər. Bütün bunlar Azərbaycanda Qızıl Xaç və Qızıl Aypara Hərəkatının nə dərəcədə önəmli olmasının parlaq nümunəsidir.

Bu il Cəmiyyətin fəaliyyət istiqaməti çoxsahəli olmuşdur. Azərbaycan Qızıl Aypara Cəmiyyəti respublikada müxtəlif zəruri layihələri uğurla həyata keçirmişdir. Xüsusilə, sosial sahəyə önəm verilmiş və bu istiqamətdə layihələr əhalinin sağlamlığı naminə maarifləndirmə işlərinin gücləndirilməsinə yönəldilmişdir. Gənclər və könüllülərin həyata keçirilən layihələrə cəlb edilməsi istiqamətində kifayət qədər işlər görülmüşdür. Xüsusilə qan donorluğu, ilk yardım və fəlakətlər zamanı zərərçəkmiş insanlara zəruri yardımların edilməsində könüllülərimiz yaxından iştirak etmişlər. Təşkilatı məsələlər sahəsində əsas istiqamətlərdən biri olan yerli bölmələrin inkişafı, üzvlərin sayının artırılması və yerli icmaların formalaşması hər zaman bizim gündəlik fəaliyyətimizdə ön məsələlərdən olub. Bu sahədə də müəyyən nailiyyətlərimiz var. Bu il üzvlərimizin sayı artaraq 270 minə çatmışdır və bu artım davam etməkdədir.

Son zamanlar dünyada baş vermiş təbii fəlakətlər, zərərçəkmişlərin kütləvi xarakter alması hər bir dövlətin

bu aktual problemin həlli istiqamətində fəaliyyətini daha da gücləndirmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti də respublikada belə hadisələrin aradan qaldırılması üçün bütün potensialından taм istifadə edir. Bildiyiniz kimi bu il Azərbaycanın bəzi rayonlarında Kür çayının daşması nəticəsində insanlar zərər çəkmiş, kəndlər su altında qalmışdır. Respublika rəhbərliyinin müvafiq göstərişi ilə bütün əlaqədar təşkilatlar, xüsusilə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi bu ərazilərdə öz imkanlarını tam səfərbər edərək kifayət qədər böyük işlər görmüşdür. Tez bir zamanda subasmaların qarşısı alınmış və zəruri humanitar tədbirlər həyata keçirilmişdir. Sevindirici haldır ki, bu hadisələrdə insan itkisinin qarşısı alınmışdır. Azərbaycan Qızıl Aypara Cəmiyyəti də bu tədbirlərdə fəal iştirak etmişdir. Özünün yerli bölmələri vasitəsilə Cəmiyyətin fövqəladə hallara hazırlıq və cavabvermə şöbəsi zərər çəkmiş insanlara operativ surətdə lazımi yardımlar göstərmişdir. Bu işlər Fövqəladə Hallar Nazirliyinin koordinasiyası ilə həyata keçirilmişdir. Belə hallarda fəaliyyət göstərmək üçün Fövqəladə Hallar Nazirliyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında memorandum mövcuddur.

Digər bir məsələni də yaddan çıxarmaq olmaz. Məlumdur ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyona yaxın soydaşımız məcburi köçkün və qaçqın həyatını yaşamağa düçar olmuşdur. Belə insanlar da zərərçəkmişlər kateqoriyasına aiddir. Minlərlə insan girov götürülmüş, qətlə yetirilmiş və itkin düşmüşdür.

Hamıya məlumdur ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin əsas fəaliyyət istiqamələrindən biri də münaqişə bölgələrində itkin düşmüş, girov və əsir götürülmüş şəxslər haqqında məlumatlar toplamaq və onların öz vətənlərinə, doğmalarına qaytarılmasına yardım göstərməkdir. Münaqişə gedən dövlətlərdə əsir, girov və itkin düşmüş insanların olması təbiidir. Bu problem Azərbaycanda da mövcuddur. İtgin düşmüş şəxslərin taleyinə aydınlıq gətirmək məqsədilə 14 aprel 2008-ci il tarixdə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş şəxslər haqqında Ante Mortem (Məlumatların toplanması və mərkəzləşdirilmiş şəkildə idarə olunması) üzrə Çərçivə Sazişi imzalanmışdır.

Bu proqramın həyata keçirilməsində üçüncü tərəf kimi iştirak edən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin də rolunu xüsusilə qeyd etmək istərdim. Bu işlərin daha da səmərəli aparılması üçün Beynəlxalq Qızıl Xaç Komitəsi ilə Cəmiyyətimiz arasında qarşılıqlı vəzifələri özündə təsbit edən müqavilə imzalanmışdır. Belə ki, respublikanın müxtəlif şəhər və rayonlarında proqramın icrası üçün Cəmiyyətin bölgələrdə fəaliyyət göstərən bütün yerli bölmələrinin potensialından istifadə olunub. Bu əməkdaşlığın əsas məqsədi itkin düşmüş şəxslərin talelərinə aydınlıq gətirməkdən ibarətdir. Münaqişə nəticəsində itkin düşmüş vətəndaşların şəxsiyyətini, əsasən insan qalıqları üzərində müəyyən edilməsinə köməklik göstərilməsi məqsədilə sistematik şəkildə ətraflı məlumatlar toplanılır. Bu layihə bu il öz işini bitirmiş və könüllülərimiz tərəfindən 3490 nəfər itkin düşmüş insanlar haqqında məlumat toplanaraq Beynəlxalq Qızıl Xaç Komitəsinə təhvil verilmişdir.

Bir çox layihələr var ki, Cəmiyyətimiz belə layihələrin zəruriliyini nəzərə alaraq davamlılığını təmin etmişdir. «Təhlükəsiz Oyun Meydançası», «İlk yardım», «Vərəmli xəstələrin müalicəsinə nəzarət», «İcmada sağlamlıq» və s. layihələr bu sıradandır. Gəlirgətirmə sahəsinin inkişafı üçün lazımi addımlar atmışıq. Strateqiyamıza uyğun olaraq bu sahə əsas prioritetlərdəndir. İanələrdən toplanmış vəsait zavallı insanlara, xroniki xəstələrə, ahıl və kimsəsizlərə müvafiq yardımların edilməsinə yönəldilir.

İnkişaf etmiş Milli Cəmiyyətlər dövlətin onlara verdiyi imtiyazlardan səmərəli istifadə edərək fəaliyyətləri üçün maddi bazanın möhkəmləndirilməsinə nail olub və bunun sayəsində humanitar proqramların həyata keçirilməsində heç bir çətinliklə, o cümlədən maddi çətinliklərlə üzləşmirlər. AzQAC da dövlətin ona verdiyi imkanlardan səmərəli istifadə edərək hökumətin humanitar sahədə ən etibarlı dayaqlarından birinə çevrilmişdir. Ümid edirəm ki, bu sahədə ictimaiyyət də bizə dəstək verəcək və birgə qarşıya çıxan problemlərin həllinə imza atacağıq. Milli Cəmiyyət xalqındır və onun fəaliyyətinə hər bir insan öz töhfəsini verməlidir. Çünki, həyatda hər birimiz xoşagəlməz hallarla üzləşə bilərik və bu an cəmiyyət bizim köməyimizə yetişir və lazımi yardımı edir. Düşünürəm ki, bu sahədə maarifləndirmə işləri daha da genişləndirilməlidir.

Maliyyə dəstəyi məsələsi Milli Cəmiyyət üçün çox önəmlidir. Əlbəttə, bu sahədə bizim həm uğurlarımız, həm də çətinliklərimiz mövcuddur. Belə ki, AzQAC ianə və üzvlük haqları hesabına zəruri humanitar proqramların həyata keçirilməsinə nail olur. Artıq xarici donorların maliyyə dəstəyi ilə həyata keçirilən layihələrin bəziləri dayandırılmışdır. Hazırda donor kimi Norveç və Danimarka Qızıl Xaç Cəmiyyətləri ilə əməkdaşlıq edirik. İndi biz yerli donorlarla daha sıx əməkdaşlıq etməyi qarşıya məqsəd qoymuşuq. Digər dövlətlərin milli cəmiyyətləri bu sahədə öz yerli donorlarından yararlanırlar. 2011-2015-ci illəri əhatə edən yeni strategiyamızın da əsas istiqamətlərindən biri məhz budur. Düşünürəm ki, buna nail olmaq üçün insanlar arasında, cəmiyyətdə lazımi maarifləndirmə işləri daha da gücləndirilməlidir. Hər bir vətəndaş ianə etdiyi vəsaitin təyinatı üzrə yönəldilməsi barədə məlumat əldə edə bilər. Bizim fəaliyətimiz şəffafdır.

Sonda, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nəcib və xeyirxah missiyasının həyata keçirilməsinə dəstək verən hər bir insana, könüllülərə, o cümlədən hökumət və qeyri-hökumət strukturlarına, beynəlxalq təşkilatlara öz təşəkkürümü bildirirəm.

***NOVRUZ ASLANOV***
***Azərbaycan Qızıl Aypara***
***Cəmiyyətinin prezidenti,***
***Milli Məclisin deputatı***

# Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Missiyası

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara xidmət etmək.

## Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsipləri

### HUMANİZM

Ayrı-seçkilik etmədən döyüş meydanlarında yaralılara yardım göstərmək zərürətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər beynəlmiləl, istərsə də milli səviyyədə hər hansı bir şəraitdə insan iztirablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. Hərəkat insan həyatı və sağlamlığını qorumaqla yanaşı, insan şəxsiyyətinə hörmətlə yanaşmağı da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında qarşlıqlı anlaşma, dostluq, əməkdaşlıq və möhkəm sülh olması üçün çalışır.

### QƏRƏZSİZLİK

Hərəkat heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə, sinfi mənsubiyyətinə, siyasi əqidəsi və sosial mövqeyinə görə fərq qoymur. O, adamların düşdükləri əzab-əziyətin ölçüsünə görə yardım edir; ilk növbədə ən ağır bəlalara düçar onların köməyinə tələsir.

### NEYTRALLIQ

Hamının ona olan inamını qoruyub saxlamaq məqsədilə, hərbi münaqişələrdə heç bir tərəfi müdafiə etməyərək, düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və ideoloji mübahisələrdə bitərəf mövqe nümayiş etdirir.

### MÜSTƏQİLLİK

Hərəkat müstəqilldir. Öz insansevərlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər öz muxtariyyətlərini qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç Hərəkatının prinsipləri ilə işləmək imkanı verir.

### KÖNÜLLÜ XİDMƏT

Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

### VAHİDLİK

Bir ölkədə yalnız bir Qızıl Xaç və Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıq olmalı və öz insansevərlik fəaliyyətini ölkənin bütün ərazisində görməlidir.

### UNİVERSALLIQ

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümumbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları vardır və onlar bir-birlərinə kömək etməyə borcludurlar.

**Martın 10-da Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaradılmasının 90 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimi keçirilmişdir. Yubiley münasibətilə geniş tədbirlər planı hazırlanmış və mərhələlərlə "90 il mərhəmət keşiyində" şüarı ilə həyata keçirilməyə başlanılmışdır. Yubiley münasibətilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti N.Aslanovun "Azərbaycan Qızıl Aypara Cəmiyyəti-zamanın axarında" adlı kitabı işıq üzü görmüşdür.**

# Azərbaycan Qızıl Aypara Cəmiyyəti "90 il mərhəmət keşiyində"

Təməli hələ 1920–ci il mart ayının 10-da Azərbaycan Demokratik Respublikasının o vaxtki baş naziri Fətəli Xan Xoyski və müdafiə naziri əvəzi general-leytenant Əliağa Şıxlinskinin təşəbbüsü ilə qoyulmuş Azərbaycan Qızıl Aypara Cəmiyyəti artıq 90 ildir ki, fəaliyyət göstərərək ölkəmizin ictimai həyatında yaxından iştirak etməkdədir. Bu münasibətlə Cəmiyyətin bütün şəhər və rayon bölmələrində təntənəli yübiley mərasimləri keçirilmişdir. İlk yubiley tədbiri Sumqayıt şəhər bölməsində keçirilərək təntənəli silsilə mərasimlərinə start verilmişdi. Belə ki, Sumqayıt və Mingəçevir şəhər bölmələrindən əlavə İsmayıllı, Xızı, Xaçmaz,Qazax, Ağdam, Lənkəran, Yasamal, Qobustan, Nərimanov, Abşeron, Suraxanı, Səbail, Nizami, Qaradağ, Ağdaş, Bərdə və s. rayon bölmələrində AzQAC-ın 90 illik yubileyi ilə bağlı təntənəli mərasimlər keçirilmişdir. Şəhər və rayonlarda keçirilmiş yubilley mərasimləri həmin şəhər və rayonların Icra Hakimiyyətləri başçılarının dəstəyi ilə baş tutmuşdur.

Mart ayının 10-da Bakı şəhərində yerləşən möhtəşəm Mədəniyyət Sarayında AzQAC-ın 90 illik yubileyinə həsr olunmuş təntənəli tədbir keçirilmişdir. AzQAC-ın prezidenti, Milli Məclisin deputatı Novruzəli Aslanov Cəmiyyətin ötən 90 ildəki fəaliyyəti barədə məruzə etmişdir. Bildirilmişdir ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti 1920-ci il martın 10-da təsis edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan AzQAC sovet hakimiyyəti illərində də böyük uğurlar qazanmışdır. AzQAC-ın prezidenti, ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra qurumun fəaliyyətində yeni dövrün başlandığını vurğulamışdır. Məhz, Ulu Öndərin təşəbbüsü ilə 1994-cü ildə AzQAC bir ictimai qurum kimi dövlət tərəfindən rəsmən tanınmış və bununla bağlı Milli Məclis müvafiq qərar qəbul etmişdir.

Bu qərardan sonra AzQAC Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən rəsmən tanınmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının tam və bərabərhüquqlu üzvlüyünə qəbul edilmişdir. N.Aslanov eyni zamanda, Azərbaycan



Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində Cəmiyyətin bu gün MDB ölkələri arasında ən inkişaf etmiş və ən yaxşı təchiz olunmuş milli cəmiyyətlərdən birinə çevrildiyini faktlarla diqqətə çatdırmışdır. O,bildirmişdir ki, Azərbaycan Prezidentinin 2008-ci il 7 aprel tarixli Sərəncamına əsasən, hər il martın 10-u ölkəmizdə "Qızıl Aypara günü" kimi qeyd edilir. Bu gün AzQAC Azərbaycanda 270 mindən artıq üzvü olan yeganə qeyri-hökumət təşkilatıdır. Hazırda Cəmiyyətin 83 rayon bölməsi və 7 regional mərkəzi uğurla fəaliyyət göstərir.

Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin adından AzQAC-ın çoxsaylı üzvlərini əlamətdar yubiley münasibətilə təbrik edərək bildirmişdir ki, ölkəmizin ictimai-siyasi, sosial həyatında mühüm rol oynamış bir təsisatın 90 illiyinin bu gün dövlət səviyyəsində qeyd olunması onun nəcib fəaliyyətinə verilən qiymətin əyani təzahürüdür. Ölkəmiz müstəqilliyini bərpa etdiyi vaxtdan indiyədək və ondan əvvəlki illərdə də sosial həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilmiş bu təşkilatın yubileyi onun müəyyən mənada xalq, beynəlxalq qurumlar və AzQAC-ın inkişafına yardım göstərmiş dövlət sturukturları qarşısında görülmüş işlərə dair hesabatı deməkdir.

Əli Həsənov demişdir ki, əgər bir təşkilatın məramı ehtiyacı olanlara, dara düşmüş, fövqəladə vəziyyətə düçar olmuş insanlara yardım göstərməkdirsə, deməli, həmin təsisat cəmiyyətdə ən arzuolunan qurum hesab edilə bilər. Hər bir ictimai, siyasi, rəsmi, qeyri-rəsmi fəaliyyətin dəyəri cəmiyyətə, insanlara nə dərəcədə sərfəli olub-olmaması ilə ölçülür, deyən Prezident Administrasiyasının şöbə müdiri, bu baxımdan AzQAC-ın ölkəmizdə məhz hamıya lazımlı və gərəkli ictimai fəaliyyətlə məşğul olduğunu vurğulamışdır.

Ölkəmizdə Qızıl Aypara Cəmiyyətinin 1920-ci ildə yaranmasına baxmayaraq, onun təşəkkülündən 2 ay keçməmiş Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradığına görə bu qurumun sovet Azərbaycanı dövründə formalaşdığını və respublikamızda Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara cəmiyyətlərinin milli qurumu kimi fəaliyyət göstərdiyini xatırladan Əli Həsənov onun əsas inkişaf dövrünün ölkəmizin ikinci dəfə müstəqilliyinə qovuşması ilə sıx bağlı olduğunu bildirmişdir. Qeyd etmişdir ki, müstəqilliyimizin ilk illərində ölkədə mövcud olan çətinliklər, xüsusilə Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış problemlərin aradan qaldırılmasında əsas rol oynayan təşkilatlardan biri Azərbaycan Qızıl Aypara Cəmiyyəti olmuşdur. AzQAC müstəqillik dövründə yenidən təşkilatlanmağa başladığı ilk gündən etibarən Azərbaycanın qarşılaşdığı ciddi problemlərin həlli istiqamətində fəal iş aparmışdır.

Azərbaycanda Qızıl Aypara Cəmiyyətinin bugünkü inkişaf mərhələsinə çatmasında dövlətin rolunu xüsusi vurğulayan Prezident Administrasiyasının şöbə müdiri, ümummilli liderimiz Heydər Əliyev tərəfindən hələ 1994-cü ildə - ölkəmizin çox çətin anlarında Cəmiyyətin fəaliyyətinin təşkili və onun milli bir qurum kimi tanınması istiqamətində xüsusi Sərəncam imzlandığını xatırlatmışdır. Bildirmişdir ki, bundan sonrakı dövrlərdə də Ulu Öndər AzQAC-ın Azərbaycan cəmiyyətinin ayrılmaz tərkib hissəsinə çevrilməsi, onun fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi üçün diqqət və qayğısını əsirgəməmişdir.

Hazırda bu siyasətin Prezident İlham Əlivev tərəfindən uğurla davam etdirildiyini deyən Ə.Həsənov dövlət başçısının "Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında" 2004-cü il 31 yanvar tarixli Sərəncamını diqqətə çatdırmışdır. Ümumiyyətlə, 2004-cü ildən bəri Azərbaycan Prezidentinin AzQAC-a dövlət qayğısının artırılması ilə bağlı 5 sərəncam imzaladığını bildirən





Ə.Həsənov ölkədə bu qədər diqqət və qayğı göstərilən ikinci bir ictimai təşkilatın olmadığını söyləmişdir. Şöbə müdiri AzQAC-ın 90 illik yubileyi ərəfəsində Prezident İlham Əliyevin sərəncamları ilə Cəmiyyətin 17 fəalının dövlət mükafatlarına layiq görülməsini qurumun fəaliyyətinə verilən qiymətin əyani nümunəsi olduğunu vurğulamışdır.

Sonra Əli Həsənov Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 mart tarixli Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüş Cəmiyyətin bir qrup üzvünə yüksək dövlət mükafatını təqdim etmişdir.

Milli Məclis sədrinin müavini Bahar Muradova AzQAC-ın 90 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasının təkcə əziyyətlər, zəhmətlər, fədakarlıqlar hesabına keçilən yolun qiymətləndirilməsi deyil, eyni zamanda, ülvi, bəşəri hisslərin - sevginin, qayğıkeşliyin, məhəbbətin, mərhəmətin təntənəsi olduğunu bildirmişdir. Qızıl aypaçıların xalqımıza təmənnasız xidmət etdiklərini deyən B.Muradova AzQAC-ın ən çətin, ən kəşməkəşli dövrlərdə insanlara dayaq olduğunu xatırlatmışdır. O, Milli Məclisin sədri Oqtay Əsədovun təbrik məktubunu Cəmiyyətin rəhbərliyinə təqdim etmiş və qızıl aypaçılara gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin deputatı Mübariz Qurbanlı, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Gürcüstandakı nümayəndəsi Elxan Rəhimov, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin başçısı Tun Vandenhuv, Türkiyə Qızıl Ay Cəmiyyəti Rəyasət heyətinin üzvü Heyati Çetin və başqaları AzQAC-ın üzvlərini yubiley münasibətilə təbrik etmişlər.

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının prezidenti Tadateri Konoenin və Beynəlxalq Qızıl Xaç Komitəsinin prezidenti Yakob Kellenbergerin yubiley münasibətilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinə təbrikləri videogörüntülərlə tədbir iştirakçılarına çatdırılmışdır. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanov Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev tərəfindən üçüncü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

16 nəfər Qızıl Aypara Cəmiyyəti əməkdaşı, o cümlədən yerli bölmə sədrləri səmərəli fəaliyyətlərinə görə Azərbaycan Respublikası Prezidenrinin imzaladığı sərəncamla "Tərəqqi" medaları ilə təltif edilmişdir.

***Bayramov Rafiq Şərəfəddin oğlu***
***Əmirova Yaməntac Vasif qızı***
***Əsgərov Elçin Lazar oğlu***
***Əsgərzadə Qafar Ələsgər oğlu***
***Hudulova Nəsibə Əmrullah qızı***
***İbrahimova Rəna Zakir qızı***
***İsgəndərova Xalidə Hüseyn qızı***
***Qocayev Əziz Məhi oğlu***
***Muradlı Vilayət Əyyam oğlu***
***Nəsibov Aydın Qoca oğlu***
***Rəhimov Elxan Rafiq oğlu***
***Sadıqova Ofelya Hətəm qızı***
***Sadıxov Nazim Əliş oğlu***
***Sultanov Ramazan Ələkbər oğlu***
***Talıbov Bəylər Rafail oğlu***
***Yaqubova Adilə Firuddin qızı***



Yubiley mərasimi bayram konserti ilə davam etmişdir.











# Fövqəladə Hallara Hazırlıq və Cavabvermə

## Məqsəd:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını səfərbər etməklə və fəlakətlərin İdarə edilməsi sisteminin təkmilləşdirilməsi vasitəsilə fövqəladə hallara hazırlıq və cavabvermə imkanlarını artırmaq.

## Fəaliyyətlər:

Azərbaycan Qızıl Aypara Cəmiyyəti hər il olduğu kimi 2010-cu ildə də



müxtəlif fəlakətlərdən (zəlzələ, yanğın, sel-suların daşması və sairə) zərər şəkən insalara humanitar və psixoloji yardımları göstərməkdə davam etmişdir. 2010-cu ilin may ayının 8-də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanovun başçılıq etdiyi nümayəndə heyəti Sabirabad, Salyan, Zərdab rayonlarına səfər etmişdir. Səfərin məqsədi, tabii fəlakətin baş verdiyi ərazidə zərər çəkmiş insanlara yardım göstərmək üçün qiymətləndirmə işlərinin aparılması olub.

Kür və Araz çaylarında suyun səviyyəsinin qalxması ilə bağlı baş verən təbii fəlakətlərin nəticəsində zərər çəkmiş insanlara yardımın göstərilməsi üçün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nümayəndə heyəti may ayının 13-də Göygöl rayonu, Hacıkənd qəsəbəsinə və Zərdab rayonuna səfər etmişlər. Səfər zamanı təbii fəlakətin baş verdiyi ərazidə zərər çəkmiş insanlara humanitar yardım göstərilmişdir. Zərdab rayonunda 210 nəfərdən ibarət 70 ailəyə və Göygöl rayonu, Hacıkənd qəsəbəsində 240 nəfərdən ibarət 53 ailəyə humanitar yardım edilmişdir.



Kür və Araz çaylarında suyun səviyyəsinin qalxması ilə bağlı Hacıqabul, Zərdab və İmişli rayonlarında baş verən təbii fəlakətlə bağlı AzQAC Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasına müraciət etmişdir. Beynəlxalq Federasiyanın DREF proqramı vasitəsilə 2010-cu il 18 may – 24 sentyabr tarixində 2195 nəfərdən ibarət 400 ailəyə Zərdab, Hacıqabul və İmişli rayonlarında humanitar yardım paylanılmışdır.

2010-cu il tarixdə İsmayıllı rayonunda yangın və digər fəlakətlərdən ziyan çəkən 133 nəfərdən ibarət 32 ailəyə humanitar yardım göstərilib. 2010-cu ildə digər rayonlarda 612 nəfərdən ibarət 135 ailəyə humanitar yardım göstərilmişdir.

2010-cu ilin sentyabrın 3-də “Azərkimya” İstehsalat Birliyinin Etilen-Polietilen zavodunun ərazisində Fövqəladə Hallar Nazirliyi qüvvələrinin mülki müdafiə üzrə təlimi keçirilmişdir. Təlimdə AzQAC-ın İcracı katibinin müavini Elşən Səlimzadə, Fövqəladə Hallara



Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə, Sumqayıt ŞB-nin mobil könüllü dəstələri və üzvləri iştirak etmişlər.

## Təchizat üzrə:

Hacıqabul, Zərdab, İmişli rayonlarında zərər çəkmiş sakinlərə yardım göstərmək məqsədilə 400 əd. rezin çəkmə, 2195 əd. dəsmal, 400 mətbəx dəsti, 200 əd. səyyar qaz plitəsi, 400əd. kanistr, 2195əd. adyal, 2195 yataq dəsti, 1500 əd. döşək, 400 gigiyenik dəst və 400 əd. ərzaq bağlaması alınmışdır.

## Qarşılıqlı əməkdaşlıq üzrə :

Azərbaycan Qızıl Aypara Cəmiyyəti xüsusilə, Fövqəladə Hallara Hazır-



lıq və cavabvermə söbəsi müxtəlif fəlakətlərdən əziyyət çəkən insanlara yardım göstərilməsi ilə yanaşı, həmçinin tərəfdaşlarla fəlakət risklərinin azaldılması məqsədi ilə müxtəlif tədbirlərdə, bu məsələ ilə bağlı seminarlarda və treninqlərdə aktiv iştirak etmişdir.

2010-cu il oktyabrın 20-də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əməkdaşları- proqram koordinatoru Elşən Səlimzadə və FHHC şöbəsinin müdiri Fərid Seyidzadə, “Park İnn” mehmanxanasında keçirilən “Fəlakət Riskinin Azaldılması üzrə Milli Platforma” mövzusu ilə bağlı seminarda iştirak etmişlər.

2010-cı il 22-25 noyabr tarixində Norveç Qızıl Xaç-ın müşahidə heyəti Azərbaycana səfər etmişdir. 2010-cu il 22 noyabr tarixdə Norveç Qızıl Xaç-ın müşahidə heyəti ilə AzQAC-ın əməkdaşları- Proqram kordinatoru Elşən Səlimzadə, FHHC şöbəsini müdiri Fərid Seyidzadə və həmin şöbənin assistenti Yasəmən Cabbarova arasında görüş keçirilmişdir. Həyata keçirilən layihələrin qiymətləndirilməsi görüşün əsas məqsədi olmuşdur.

## Nailiyyət:

Müxtəlif fəlakətlərdən zərər çəkmiş zavallı insanlara humanitar yardımlar üzrə:

2010-cu ildə AzQAC tərəfindən müxtəlif fəlakətlərdən zərər çəkmiş 1188 nəfərdən ibarət, ümumilikdə, 288 ailəyə 49822,35 manat dəyərində humanitar yardım göstərilmişdir.

2010-cu ilin may ayında Hacıqabul, Zərdab və İmişli rayonlarında baş vermiş fəlakətlə əlaqədar Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası-

| № | Regional Mərkəz | Ailə sayı | Neçə nəfər | Məbləğ |
|---|---|---|---|---|
| 1 | Bakı Mərkəzi Anbar | 288 | 1188 | 49822,35 |
| 2 | Bakı Mərkəzi Anbar | 400 | 2195 | 90262,75 |
| 3 | Sabirabad | 2 | 7 | 442,14 |
| | Cəmi: | 690 | 3390 | 140527,24 |

nın "Fövqəladə Hallara Cavabvermə Fondu (DREF)" tərəfindən ayrılmış maliyyə vəsaiti hesabına daha 2195 nəfərdən ibarət 400 ailəyə 90262,75 manat dəyərində humanitar yardım göstərilmişdir.

**Problemlər:**

Fövqəladə hallara hazırlıq və cavabvermə üzrə milli planın olmaması;

Hələ də xarici donorlardan asılılıq;

Fəaliyyətlər üçün kifayət qədər maliyyə vəsaitinin olmaması;

Telekommunikasiya üzrə mütəxəssisin olmaması;

Nəqliyyat vasitəsinin olmaması.

# "Sağlamlıq və qayğı"

**Məqsəd:**

Səhiyyə-maarifi işi və səhiyyə xidmətləri vasitəsi ilə sağlamlıq barəsində biliklərin artırılması.

## Vəzifə 1. İcmada sağlamlıq və qayğı

Son illər ərzində Respublikada əhali arasında sağlamlıqla bağlı təbliğat işləri aparılır. Lakin buna baxmayaraq icmalarda geniş səhiyyə maarifi işinin təşkilinə hələ də ehtiyac duyulur.



İl ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin "sağlamlıq və qayğı" şöbəsi əhalinin xəstəliklər barəsində maarifləndirilməsi, bununla da xəstəliklərin azaldılması və sağlamlığın yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayan səhiyyə- maarifi işinin təşkilinə dair fəaliyyətlərini respublikanın region və rayonlarında davam etdirir. Aparılan səhiyyə-maarifi işi daha çox yayılan "İnsan Qripi", "Vərəm", "QİÇS/QİÇS", "Cinsi yolla keçən xəstəliklər", "İnfeksion xəstəliklər", "Süd vazi xərçəngi", "Siqaretçəkmə", "Narkomaniya, alkoqolizm" və s. kimi xəstəliklərlə mübarizəyə yönəldilir. Bu fəaliyyətlər nəticəsində il ərzində 12411 nəfər maarifləndirilmişdir. AzQAC "İcmaya əsaslanan sağlamlıq" sahəsində aparılan fəaliyyətləri İçtimai Səhiyyə və İslahatlar Mərkəzi, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Azərbaycan Səhiyyə Kommunikasiya Assosiasiyası, "Həyat" Beynəlxalq Humanitar Təşkilatı, Bakı Rotarakt Klubu, "Gənclərə dəstək" İçtimai Birliyi və s. kimi təşkilatlarla birgə əməkdaşlıq edərək həyata keçirmişdir.

Belə ki, **Bakı Rotarakt Klubunun üzvləri** ilə birgə Zabrat qəsəbəsi və Nərimanov rayonunda yerləşən qaçqın və məcburı köçkünlər yaşayan yataqxanalardan olan 50 nəfər qadın cəlb edilərək, "Süd vazi xərçəngi və onun profilaktikası" adlı seminar təşkil edilmişdir. AzQAC "Sağlamlıq və qayğı" şöbəsinin müdiri M.Qaraxanova seminar iştirakçılarına süd vəzi xərçəngi xəstəliyinin əmələ gəlməsində risk amilləri (faktorları), süd vəzisinin quruluşu, xərçəng xəstəliyinin əlamətləri və diaqnostika üsulları haqqında məlumat vermişdir.

İyul ayında Masallı rayonunun Ərkivan qəsəbəsində qadın və qızların sağlamlığının qorunmasına dair maarifləndirmə yönümlü tədbir təşkil olunmuşdur. Tədbir Ərkivan qəsəbəsində müasir tipli həkim məntəqəsində keçirilmişdir. Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun mamalıq və operativ ginekologiya kafedrasının dosenti, AzQAC-nin könüllüsü olan Reyhanə Hacıyeva 30 nəfər qadının (o cümlədən hamilə qadınların) reproduktiv sağlamlıqlarına dair müayinə edib, lazımi məsləhətlər vermişdir.

**"Həyat" Beynəlxalq Humanitar Təşkilatı** ilə birgə iyul ayının 23-də Sabunçu rayon bölməsində 60 nəfər qaçqın və məcburi köçkün ailəsinə "Yolxu-



cu xəstəliklər və onların profilaktikası" barədə seminar təşkil edilmişdir. Seminarın sonunda uşaqlara "Həyat" təşkilatı tərəfindən **"Arzular torbası"** - humanitar yardım paylanılmışdır.

## İnsan Qripi pandemiyasına icmaların hazırlığı

2010-cu ildə Azərbaycan Qızıl Aypara Cəmiyyəti hökumətə infuenza pandemiyasına hazır olmaqda dəstək vermək və bu sahədə icma əsaslı fəaliyyətlər yerinə yetirmək məqsədilə "Pandemiyaya Hazırlıq Təşəbbüsü" layihəsini Bakı, Lənkəran, Sabirabad, Mingəçevir, Sumqayıt regional mərkəzlərinin 19 rayon bölməsində davam etdirmişdir. Beynəlxalq İnkişaf üzrə ABŞ Agentliyi (USAİD) və Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiyasının dəstəyi ilə aparılan layihə çərçivəsində icmalarda H2P pandemiyasına hazır olmağa aid Cəmiyyətin işçi və könüllüləri tərəfindən təlimlər, görüşlər və praktiki məşğələlər təşkil olunmuş, sorğular keçirilmişdir. İcmalarda "H2P Pandemiya"ya dair sorğuların aparılmasında məqsəd H2P pandemiyasının xarakter və riskinin icma üzvləri tərəfindən necə dərk edilməsi, onların bu pandemiya



üzrə imkanlarının və imkansızlıqlarının öyrənilməsi, pandemiya üzrə icma əsaslı planın hazırlanması və həmin plan üzrə fəaliyyətlərin həyata keçirilməsidir. Sorğunun keçirildiyi 19 rayon bölməsindən olan 98 % icmaların hamısında respondentlərin böyük əksəriyyəti A H1N1 virusuna yoluxmanın hansı yolla olması və yoluxan zaman hansı əlamətlərin olması barədə düzgün məlumata malik olmaları aşkarlanmışdır.

İcmalarda bu virusa yoluxma yollarını və yoluxan zaman əlamətlərini bilməyənlər də vardır. Bu sahədə icma üzvlərinin məlumatlandırılmasına ehtiyac olmasını nəzərə alaraq, AzQAC respublika rayonlarında səhiyyə- maarifi işinin təşkilinə dair fəaliyyətlərin genişləndirməsini davam etdirir. Pandemiyaya qarşı hazırlıq baxımından sorğunun nəticələrinə görə icmaların hazırlıq səviyyəsini gücləndirmək üçün onların əsasən gigiyenik ləvazimatlara (maska və əlcəklərə) ehtiyacı vardır.



## Diaqram 1. Pandemiyaının qarşısını almaq üçün ehtiyaclar



Aparılan sorğuların təhlili göstərdi ki, əksər icmalarda insan qripi pandemiyasına hazırlıq və cavabvermə planlarının mövcud olmamasına görə bu sahədə də lazımi tədbirlərin həyata keçirilməsi zəruridir. Pandemiya riskinin daha düzgün və effektiv qiymətləndirilməsi üçün həmin icmalarda "xəritələşmə" işinin aparılmasına ehtiyac duyulurdu. Bu "xəritələşmə" işi aparılarkən pandemiya üzrə imkanlılıq və imkansızlıq nöqteyi-nəzərdən icmaların yerləşdiyi coğrafi ərazilər, əhalinin sayı, infrasrtuktur, iqtisadi vəziyyət, sosial və səhiyyə obyektləri öyrənilmişdir. Layihənin sonunda toplanılmış bu məlumatları istifadə edərək, AzQAC-ın icma səviyyəsində pandemiya riskinin azaldılması məqsədilə Qrip Pandemiyasına Hazırlıq və Cavabvermə planını hazırlamışdır. Azərbaycanın şəhər və rayonlarında fəaliyyət göstərən tibb və digər müəssisələrdə Fövqəladə Hallar üzrə (pandemiya daxil olmaqla) mövcud olan planlar icma səviyyəsinə görə baxılmalı və yenidən işlənilib hazırlanmalıdır. Gələcəkdə həmin planların yerlərdə həyata keçirilməsinə dair insanların maarifləndirilməsi gücləndirilməli, geniş və davamlı şəkildə həyata keçirilməlidir ki, pandemiyanın insanlara olan mənfi təsirini azaltmaq mümkün olsun.

## Vəzifə 2. Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafı.

İl ərzində "Klub – 25"- in üzvləri müxtəlif tədris ocaqları və təşkilatlarda gənclər arasında əyani vəsaitlərin paylanması ilə könüllü təmənnasız mütəmadi qan donorlarını cəlb etmək məqsədi ilə geniş təbliğat tədbirləri keçirmişlər. Nəticə olaraq, 3175 nəfər könüllü təmənnasız qan donorluğu haqqında maarifləndirilib, 1807 nəfər isə qan vermişdir.

Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) Xətai Telefon Qovşağı, Azərbaycanda fəaliyyət göstərən Çin Xalq Respublikasının geniş çeşidli "TİENS" firması, Azərbaycan Texniki Universiteti kimi təşkilatlarla birgə il ərzində qanvermə aksiyaları təşkil olunmuşdur. Hər il AzQAC prezidenti cənab Novruz Aslanovun daimi qan donorları ilə birgə təşkil olunan qanvermə aksiyalarına qoşularaq, könüllü qan verməsi artıq ənənə şəkili alıb .

2010-cu ildə Ümumdünya Qan Donoru Gününün mövzusu "Dünya üçün yeni donor" olmuşdur. Bu mövzu daha çox gəncləri könüllü qan donorluğunun inkişafında fəal olmağa çağırır.



Bu günlə bağlı AzQAC-ın ofisində keçirilən dəyirmi masada bir sıra təşkilatlarla əməkdaşlıq çərçivəsində Azərbaycanda qan donorluğunun inkişafına dair aparılan fəaliyyətlərin təşkil olunması müzakirə olunmuşdur. Həmin gün Sahil Parkında könüllü təmənnasız qan donorluğunu təbliğ etmək məqsədi ilə AzQAC "Club 25"-in üzvləri və digər gənclərlə iş aparan təşkilatlardan olan könüllülər xüsusi qırmızı geyimdə, qırmızı rəngli şarlar və qanın damla formasında olan bayraqlarla əhali arasında qan donorluğuna aid maariflənmə işlərini aparmışlar. Gənclər bir araya toplanaraq, bir-biri ilə donorluq haqqında sual-cavab aparmış, ildə iki dəfə qan verən insanlara təşəkkür bildirmiş və tədbirdə fəal könüllülər tərəfindən Flesh Mob. - bir dəqiqəlik hərəkətsiz dayanaraq parkda olan insan-



ların diqqətini cəlb etmişlər. Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı Nümayəndəliyinin texniki dəstəyi ilə təşkil olunan bu tədbirdə mövzuya uyğun hazırlanan plakat və vərəqələr əhali arasında paylanılmışdır.



## Vəzifə 3. Vərəm

Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata görə hər il dünyada 2-3 milyon insan vərəm xəstəliyindən ölür. Azərbaycanda hər 100 000 nəfərdən 60 nəfəri vərəm xəstəsidir.

Bu gün Azərbaycanda Səhiyyə, Ədliyyə Nazirlikləri ilə birgə fəaliyyət göstərən yerli və Beynəlxalq Təşkilatlardan olan Ümumdünya Səhiyyə Təşkilatı, İİV/QİÇS, Vərəm və Malyariya ilə mübarizə Global Fondu, GTZ-Almaniya Hökumətinin Vərəmə Nəzarət Proqramı, Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiyası, Beynəlxalq Qızıl Xaç Komitəsi, Azərbaycan Qızıl Aypara Cəmiyyəti, "Həyat" Beynəlxalq



Humanitar Təşkilatı, Azərbaycan Səhiyyə Kommunikasiya Assosiasiyası, Abt Assosiate tərəfindən ölkədə əhali arasında geniş səhiyyə-maarifi işinin təşkili, xəstələrin müayinə və müalicəsinin yaxşılaşdırılması və dərmanlarla təmin olunması kimi fəaliyyətlər vərəmlə mübarizəyə yönəldilir.

Dövlətə humanitar sahədə yardımçı rolunu oynayan Azərbaycan Qızıl Aypara Cəmiyyətinin sağlamlıq sahəsində aparılan fəaliyyətlərində vərəmlə mübarizə önəmli yer tutur. Əhali arasında vərəm haqqında geniş səhiyyə-maarifi işinin təşkili ilə yanaşı vərəmli xəstələrə diqqət və qayğı göstərilir.

Belə ki, avqust ayından başlayaraq, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının vasitəsilə, ABŞ "Eli Lilly" təşkilatının dəstəyi ilə Bakının Yasamal, Binəqədi, Nizami, Xəzər rayonlarında "Dərmanlarla davamlı vərəm xəstələrinin müalicəsinə nəzarət" adlı layihə həyata keçirilmişdir.

Layihəyə AzQAC-ın adı çəkilən rayon bölmələrinin 4 tibb bacısı cəlb olunmuşdur. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Milli Vərəm Proqramının mütəxəssisləri AzQAC-ın tibb bacıları üçün “Dərmanlarla davamlı vərəmli xəstələrin müalicəsinə nəzarət” adlı təlim təşkil edilmişdir.

Təlimatlandırılmış tibb bacıları hər gün vərəm əleyhinə müalicə proqramında olan 20 nəfər (1 tibb bacısı 5 xəstəyə tibbi-sosial xidmət göstərir) vərəm xəstələrinə



baş çəkib, onların xüsusi dərmanlarının qəbuluna nəzarət edib. Bununla yanaşı, tibb bacıları xəstələrin ailə üzvləri ilə maarifləndirmə işlərini də aparıb, onlara mənəvi dəstək verib, qayğı göstərib. Vərəm əleyhinə müalicə uzun müddətli və məsuliyyətli olduğundan bu layihəyə psixoloq cəlb olunub. Psixoloq tərəfindən hər ay həm xəstələr və onların ailə üzvlərinə, həm də tibb bacılarına psixoloji yardım edilib. Bu xəstələrə layihə çərçivəsində aparılan psixoloji yardım onların öz müalicəsini davam edərək bitirməsinə kömək edib.

## Vəzifə 4. İcmaya əsaslanan İlk yardım.

İl ərzində “İlk yardım” sektorunun fəaliyyəti çərçivəsində ilk yardım üzrə 57 nəfər təlimatlandırılmış könüllü (20 nəfər Bakı, 5 nəfər Füzuli, Ağdam, 25 nəfər Zaqatala və Ucardan ilk yardım dəstəsinin üzvləri, 7 nəfər isə RM-də ötən illərdə təlimatlandırılmış könüllülərdir) Bakı, Sabirabad, Mingəçevir, Lənkəran, Gəncə, Sumqayıt RM və Bakı, Ağdam, Füzuli, Zaqatala, Ucar RB-dən 995 nəfər əhali arasında ilk yardım vərdişləri haqqında təbliğat işlərini aparmışlar.

Hər il olduğu kimi, Azərbaycan Qızıl Aypara Cəmiyyəti Fövqəladə Hallar Nazirliyi ilə birgə bir neçə tədbir keçirib. Belə tədbirlərdən biri, **1 Mart “Ümumdünya Mülki Müdafiə Günü”** nə həsr edilmişdir. Bu il Yasamal rayonunda yerləşən Geofizika Elmi-Tədqiqat İnstitutu, Bizness Universitetində “Qəzalarda Səhiyyə”mövzusu ilə təlim-məşğələlər təşkil olunmuşdur. Bu təlimlərdə iştirakçılara Ümumdünya Səhiyyə Təşkilatının qəzalar təsnifatını, bədbəxt hadisələr, təbii fəlakətlərdə və epidemiyalar zamanı insan sağlamlığına təsir edən amillər, bu-





nunla bağlı meydana çıxan problemlər və onların aradan qaldırılmasında vacib olan ilk yardımların aparılması barədə geniş məlumatlar təqdim olunmuşdur.

Digər tədbir isə sentyabr ayının 1-dən 3-dək Bakı şəhəri Yasamal rayonundakı 20 saylı məktəb-litseyində ümumtəhsil orta məktəbləri və onlara bərabər tutulan təhsil ocaqlarından olan **300 nəfər** 2, 5 və 6-cı sinif rəhbərləri (müəllimləri) üçün 3 günlük fövqəladə hallara hazırlıq və cavabvermə adlı təlim- məşğələ təşkil olunmuşdur. Təlim iştirakçılarına qanaxma zamanı ilk yardım vərdişləri nümayiş olunaraq, zərərçəkənə yardım etmək barədə geniş məlumat verilmişdir. Uşaqlarda tez-tez rast gələnən günvurma, ilan sancması, sınıqlar, zəhərlənmələr, epilepsiya tutmaları zamanı ilk yardımın növləri və üsullarına aid suallara İlk Yardım sektorunun rəhbəri Şahin Biləndərli tərəfindən ətraflı açıqlama verilmişdir.

Sentyabr ayının 11 və 13-də **“Ümumdünya İlk Yardım Günü”** ilə əlaqədar Yasamal rayonunda yerləşən qaçqın və məcburi köçkün icmasında və Miqrantlar üçün Qadın mərkəzində İlk Yardım üzrə təlim-məşğələ təşkil olunmuşdur.

# İİV və QİÇS

### Məqsəd:

Yaşa uyğun İİV və QİÇS-lə bağlı bilikləri təmin etmək, gənclərə düzgün qərar qəbul etmələrinə kömək, İİV və QİÇS xəstəliyinin qarşısını almaq üçün onların sağlamlıqla bağlı davranışlarını inkişaf etdirmək.

### Fəaliyyət:

2008 – 2010 – cu illər üçün strateji plana uyğun olaraq əhali arasında QİÇS haqqında xəbərdarlığın artırılması məqsədilə maarifləndirmə işləri və xəstələrə qarşı stiqmanın azaldılması fəaliyyətləri həyata keçirilmişdir:

2010-cu il ərzində İİV və QİÇS layihəsi çərçivəsində həmyaşıddan-həmyaşıda 48 nəfər yeni treyner hazırlanıb. Həmin treynerlər Sabirabad, Lənkəran və Mingəçevir Regional Mərkəzində çalı-



şan fəal könüllülərdən ibarətdir. İl ərzində 39535 nəfər İİV və QİÇS sahəsində maariflənmiş və infeksiyadan qorunma yolları haqqında biliklərə yiyələnmişdir. Həmçinin, il ərzində 14 nəfər treyner üçün biliklərin təzələnməsi məqsədilə, 1 treyninq və 1 dəyirmi masa həyata keçirilmişdir. 54 nəfər treyner üçün təcrübə mübadiləsi məqsədilə Sabirabad və Lənkəran şəhərlərində 2 treyninq həyata keçirilmişdir. Habelə, il ərzində əhali və hədəf qrupları arasında müxtəlif mövzularda (1 Dekabr QİÇS-lə mübarizə, İİV damğa və ayrı-seçkilik, buklet və tibbi qoruyucu vasitələrin-prezervativlərin paylanılması) regionlar səviyyəsində 4 kampaniya keçirilib. Keçirilən kampaniyalar regional kampaniyalar olmuşdur. Bütün Regional Mərkəzlərdə regiona daxil olan Rayon Bölmələrindən könüllülər iştirak etmişdir. Həmin kampaniyalarda ümumilikdə, 5500-dən artıq insan iştirak etmişdir. Respublika ərazisində fəaliyyət göstərən bir çox Qeyri- Hökumət Təşkilatlarının nümayəndələri həmin tədbirlərdə fəal surətdə iştirak etmişlər. 2010-cu il ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin könüllüləri və İİV-li insanlar üçün 2 piknik həyata keçirilmişdir. Bu 2 piknikdə 38 nəfər insan iştirak etmişdir.

Dekabrın 3-də Beynəlxalq Muğam Mərkəzində "Ümumdünya QİÇS-lə Mübarizə Günü"nə həsr edilmiş tədbir keçirilmişdir. Tədbir Azərbaycan Qızıl Aypara Cəmiyyətinin, Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı ilə reallaşmışdır. Bildirilmişdir ki, Ümumdünya Dünya Səhiyyə Təşkilatının (DST) təklifi ilə 1988-ci ildən etibarən keçirilən "QİÇS-lə Mübarizə Günü"nün qeyd olunmasının əsas məqsədi insanların diqqətini problemə cəlb etmək və onun nə dərəcədə qlobal olduğunu dünya ictimaiyyətinə çatdırmaqdan ibarətdir. Tədbirdə xəstəlik, onun müalicəsi, qarşısının alınması üçün profilaktiki tədbirlər haqqında məlumat verilmişdir. Azərbaycanın İİV-ə yoluxma səviyyəsi aşağı olan ölkələr sırasında olduğunu qeyd edən natiqlər əhali və riskli davranış qrupları arasında sanitar-maarifləndirmə işləri aparılmasının vacibliyini vurğulamışlar. Tədbir tanınmış musiqiçilərin geniş konsert proqramı ilə davam etdirilmişdir.

2010-cu il 8 dekabr taixində Sumqayıt şəhərində "Ümumdünya QİÇS-lə Mübarizə Günü"nə həsr edimiş informasiya kampaniyası çərçivəsində parad-yürüş təşkil edilmişdir. Azərbaycan Qızıl



Aypara Cəmiyyətinin Sumqayıt şəhər bölməsinin təşəbbüsü ilə Sumqayıt şəhər Gənclər və İdman baş idarəsi ilə birlikdə təşkil edilən yürüş "Gənclər QİÇS-ə qarşı!" şüarı ilə keçirilmişdir. Tədbirdə gənclər, idmançılar, tələbələr, eləcə də şəhərdəki litsey və məktəbli şagirdlər iştirak etmişdir. Sinələrinə QİÇS-lə mübarizə rəmzi olan qırmızı lent taxmış parad-yürüşün iştirakçıları əllərində transparantlar, plakatlar, şüarlar tutaraq Sumqayıtın mərkəzi küçələrindən keçmişlər. Aksiya iştirakçıları zəmanəmizin bəlasına çevrilmiş bu xəstəliyin profilaktikasına aid bukletlər, kitabçalar və digər informasiya materialları paylamışlar. Yürüş Sumqayıt sakinlərinin həyat eşqinin və daha yaxşı gələcəyə ümidinin təcəssümü olan "Sülh göyərçini" abidəsinin yanında başa çatmışdır. Yürüş iştirakçıları elə həmin gün Sumqayıtda disput keçirmişlər. Tədbirdə şəhər gənclərinin İİV infeksiyaya və QİÇS-ə qarşı mübarizə tədbirlərində iştirakı məsələləri müzakirə edilmişdir. Disput iştirakçıları profilaktik proqramlara ictimai dəstəyin artırılmasının, bu problemin bütün aspektləri barədə məlumat təqdim edilməsinin, xəstəliyə yoluxma riskinin yüksək olduğu ictimai yerlərdə nəzarəti gücləndirməyin zəruri olmasını qeyd etmişlər.

Ümumiyyətlə, keçirilən treyninq və sessiyalarda İİV və QİÇS xəstəliyinin tarixi və onun dünyada qlobal yayılması haqda statistik məlumatlar verilmiş, İİV və QİÇS-in mahiyyəti barədə terminlər və təriflərdən ibarət söhbət aparılmışdır. Daha sonra immun sistemi haqqında ümumi anlayış, İİV infeksiyasının əlamətləri, QİÇS xəstəliyinin aşkar edilməsi, kimlər yoluxa bilməsi, ötürülmə yolları və ötürülmənin qarşısının alınması, İİV-in insan orqanizminə təsiri haqqında geniş məlumatlar verilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən çəkilmiş "Özünü qoru" video çarxı nümayiş etdirilmiş, daha sonra isə treyninq iştirakçıları qruplara bölünərək interaktiv oyunlar və onların müzakirəsi keçirilmişdir. Iştirakçılar bu xəstəliyə yoluxma və ondan qorunma yollarını öz rəsmlərində əks etdirərək hər bir rəsmin prezentasiyasını keçirmişlər. Həmçinin, QİÇS-lə mübarizə günü və qırmızı lent barədə söhbət aparılmış, İİV test, İİV və QİÇS zamanı ilk yardım mövzusunda müzakirələr keçirilmişdir. İİV və QİÇS xəstəliyi ilə yaşayan insanlar və onlara qarşı ayrı-seçkiliyin azaldılması haqqında danışılmış, müxtəlif oyunlar və sorğular keçirilmişdir.

## Nailiyyətlər

- Əhali arasında təşkil olunan "İcmada sağlamlıq" adlı təlimlərin sahəsində 12411 nəfər maariflənmişdir.
- "Pandemiyaya qarşı Hazırlıq "layihəsi çərçivəsində 76560 nəfər maarifləndirilib.
- Bakıda 5 nəfər könüllülərdən ibarət Klub 25 yaradılmışdır.
- Könüllü sağlamlıq işçilərinin fəaliyyəti sahəsində 3175 nəfər maarifləndirilmişdir.
- 1807 nəfər könüllü qan vermişdir.
- 57 nəfər ilk yardım üzrə təlimatlandırılmış könüllülərinin fəaliyyəti sayəsində 995 nəfər ilk yardım vərdişlərinə yiyələnmişdir.
- 4 nəfər tibb bacısının fəaliyyəti nəticəsində 20 nəfər MDR-TB (Dərmanlara davamlı vərəm) xəstələr müalicəyə cəlb olunmuşdur.
- Il ərzində proqram çərçivəsində 48 treyner hazırlanıb.
- 14 treyner üçün biliklərin artırılması treyninqi həyata keçirilib.
- 54 treyner üçün təcrübə mübadiləsi treyninqi keçirilib.
- Ümumi sayda 38 nəfər olmaqla İİV insanlar və könüllülər üçün 2 piknik həyata keçirilib.
- 1 dekabr "Ümumdünya QİÇS-lə Mübarizə Günü"nə həsr olunmuş, eyni zamanda əhali arasında (habelə hədəf qrupları) İİV damğa və ayrı-seçkilik məlumatlandırma, tibbi qoruyucu vasitələrin və bukletlərin paylanılması kampaniyalarında ümumilikdə il ərzində 5500-dən artıq insan iştirak etmişdir.
- İİV və QİÇS sessiyalarında il ərzində 39535 nəfər maarifləndirilmişdir.
- 1400 ədəd "Gənclər QİÇS-in əleyhinədir" adlı buklet çap olunub.
- 1900 ədəd tibbi qoruyucu vasitələr (prezervativlər) paylanılmışdır.

### Problemlər

Donor cəmiyyətləri tərəfindən maliyyə dəstəyinin dayandırılması, həmçinin sağlamlıq işçiləri və tibb bacıları üçün təlimlərin keçirilməsi, vərəmli xəstələrə psixoloq mütəxəsis tərəfindən məsləhətin verilməsi, əhali arasında sağlamlıqla bağlı maarifləndirmə tədbirlərinin geniş şəkildə aparılması, qanvermə aksiyalarının təşkili, əyani vəsaitlərin çapı, könüllülərin həvəsləndirilməsi, monitorinq aparılması sahəsində göstəricilərinin (əvvəlki illərlə müqayisədə) aşağı olması.



**Dioqram 2. Maariflənənlərin sayı**

# İnformasiya

### Məqsəd:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri haqqında məlumatları KİV və içtimaiyyət arasında daha səmərəli yaymaq.

### Fəaliyyətlər:

Fəaliyyətlər 2008-2010-cu illər üçün qəbul olunmuş AzQAC-nin Strateji Planına uyğun olaraq həyata keçirilmişdir:

8 may "Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Hərəkatının yaranma günü" ilə əlaqədar ağacəkmə aksiyası keçirilmişdir.

Aksiya Zığ – "Heydər Əliyev" adına Beynəlxalq Hava Limanı şossesində yerləşən ərazidə keçirilmişdir. Əsas məqsəd, paytaxtın ekoloji durumunda müstəsna əhəmiyyətə malik olan yaşıllığın daha da genişlənməsinə xidmət edəcək dəstəyin verilməsidir. Aksiyada Cəmiyyətin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanov, cəmiyyətin işçi və könüllüləri iştirak etmişlər. Tədbir zamanı 300 ağac əkilmişdir.

### Nailiyyətlər:

2010-cu ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 2009-ci il üçün İllik Hesabatı dərc edilmişdir.

2010-cu ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin həyata keçirdiyi tədbirlər və fəaliyyətlər barədə AzTV, Lider, Space, ATV, İTV, Xəzər televiziya kanallarında, "Yeni Təfəkkür", "Zerkalo", "Azərbaycan", "Respublika", "Vışka"qəzetlərində, 1news, Trend, kaspiy, SIA, AzerTac, APA, Day.az, Navigator.az, Aile-hekimi.az internet xəbər agentliklərində və Cəmiyyətin internet səhifəsində toplam olaraq 190 məqalə nəşr edilib və məlumatlar işıqlandırılmışdır.

"Facebook" və "Twitter" sosial internet şəbəkələrindəki Azərbaycan Qızıl Aypara Cəmiyyətinin rəsmi səhifəsi yaradılaraq istifadəyə verilib və mütəmadi olaraq yenilənir.
(http://www.facebook.com/group.php?gid=324673369269)
(https://twitter.com/AzRedCrescent#)

Kür və Araz çaylarında suyun səviyyəsinin qalxması ilə bağlı baş verən təbii fəlakətlərin nəticəsində zərər çəkmiş insanlara yardımın göstərilməsi məqsədilə, fəlakət baş verdiyi ərazidə video çəkiliş aparılaraq, "Youtube" video-paylaşma saytında yerləşdirilmişdir.
(http://www.youtube.com/user/QizilAypara?feature=mhum)

### Problemlər:

Baş qərargahın regional mərkəzlər və yerli bölmələri ilə internet və elektron poçt əlaqələrinin olmaması.

# Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental prinsiplərinin və Beynəlxalq Humanitar Hüququn əsaslarının yayımı

### Məqsəd

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (BQX/QAH) tarixi və onun tərkib hissələri, yəni Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), Beynəlxalq Qızıl Xaç və Qızı Aypara Cəmiyyətləri Federasiyası (Federasiya) və Milli Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətlərinin fəaliyyətləri, Hərəkatın fundamental prinsipləri, Qızıl Xaç, Qızıl Aypara və Qızıl Kristal emblemlərindən düzgün istifadə qaydaları və Beynəlxalq Humanitar Hüququn (BHH) əsasları haqqında məlumatları ictimaiyyət arasında yaymaqdır.

### Qısa arayış

BHH-nin əsasları və BQX/QAH-ın fundamental prinsiplərinin yayımı Cenevrə Konvensiyalarına imza atmış dövlətlərin öhdəliklərindən biridir. Bu işin həyata keçirilməsində Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri yaxından dəstək verir. Silahlı münaqişə zamanı insan hüquqlarının qorunmasına yönəlmiş BHH qaydaları 1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyaları və 1977, 2005-ci illərdə onlara əlavə olunmuş protokollarda öz əksini tapır. Yayım proqramı 1997-ci ildən BQXK-nın maliyyə və texniki dəstəyi ilə həyata keçirilir.

### Fəaliyyət

Proqram BQXK və Azərbaycan Qızıl Ayprara Cəmiyyəti (AzQAC) arasında bağlanmış əməkdaşlıq sazişi çərçivəsində, 2010-cu ilin fəaliyyət planı əsasında həyata keçirilmişdir.

Fəaliyyət planına uyğun olaraq, 25-26 may 2010-cu il AzQAC-ın baş qərargahında Cəmiyyətin 7 Regional Mərkəzində fəaliyyət göstərən 14 yayım könüllüsü üçün treninq keçirilmişdir. Əsas məqsəd BHH-nın əsasları və BQX/QAH haqqında son məlumatlar, AzQAC-ın XXI-II Baş Məclisi və 90 illik yubileyində qəbul edilmiş qərarlar, cəmiyyətin sağlamlıq və qayğı, silahlara qarşı mübarizə sahəsində həyata keçirilən fəaliyyətləri barədə yayım könüllülərinə məlumat vermək, 1949-cu il 12 avqust tarixili Cenevrə Konvensiyalarının qəbul edilməsi günü ilə bağlı təkliflər vermək, yayım fəaliyyəti zamanı mövcud problem və bununla bağlı təkliflər

verməkdən ibarət olmuşdur. Kütləvi informasiya vasitələri üçün 8 may “Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Hərəkatının yaranması günü” ilə əlaqədar Hərəkatın tarixi, tərkib hissələri və onun fəaliyyəti, fundamental prinsipləri haqqında geniş məqalə hazırlanmış və işıqlandırılması məqsədilə kütləvi informasiya vasitələrinin ünvanlarına (elektron) göndərilmişdir.

Anri Dünanın ölümünün 100-cü il dönümü ilə əlaqədar Qan Bankında qanvermə aksiyası keçirilmişdir. Aksiyada “Bir ideyanın tarixçəsi” adlı 10 jurnal paylanılmışdır.

5 dekabr “Beynəlxalq Könüllülər günü” ilə əlaqədar xəstə uşaqlar üçün keçirilən tədbir iştirakçılarına “Bir ideyanın tarixçəsi” adlı film təqdim edilmiş və jurnal paylanılmışdır. Tədbirdə Azərbaycan Hemofiliya assosiasiyasından 5 nəfər, Diabet Liqasından 2 xəstə uşaq və 24 könüllü iştirak etmişdir.

Mütəmadi olaraq hər ay yeni qeydiyyatdan keçmiş Cəmiyyət könüllülərinə və üzvlərinə, yeni işçilərə BQX/QAH



onun tərkib hissələri və fundamental prinsipləri və BHH-nin əsaları haqqında təlimlər keçirilmişdir. Təlim nəticəsində 50 nəfər maariflənmişdir. Həmçinin, AzQAC-da istehsalat təcrübəsi keçən Bakı Slavyan Universitetinin 23, Qərb Universitetinin 11 tələbəsinə təlim keçirilmişdir.

“Ətraflı Məlumatların Toplanılması” proqramı haqqında baza məlumatlar təqdimata daxil edilərək həm regionlarda, həm də Bakı şəhərində yayım işləri həyata keçirilmişdir. Yayım sektorunun işçiləri “ƏMT” proqramı ilə bağlı keçirilən görüşlərdə iştirak etmişlər.

AzQAC-ın orqanı olan “Yeni Təfəkkür” qəzetində Cəmiyyətin həyata keçirdiyi tədbirlər və fəaliyyətlər barədə 102 məqalə dərc edilmişdir.

### Nailiyyət

• Regionlarda fəaliyyət göstərən 14 yayım könüllüsü BQX/QAH və BHH-nin əsasları, AzQAC-ın humanitar fəaliyyəti haqqında son məlumatlar əldə etmiş, AzQAC-ın XXIII Baş Məclisi və 90 illik yubileyində qəbul edilmiş qərarlar, Cəmiyyətin sağlamlıq və qayğı, silahlara qarşı mübarizə sahəsində həyata keçirdiyi fəaliyyəti barədə məlumat almışlar.

• BQX/QAH onun tərkib hissələri və fundamental prinsipləri, BHH-nin əsaları haqqında maariflənənlərin sayı cəmi 112 nəfər olmuşdur.

• “Yeni Təfəkkür” qəzetinin abunəçiləri AzQAC-ın tədbir və fəaliyyətləri ilə bağlı 102 məqalə ilə tanış olmuşlar.

## Beynəlxalq Əlaqələr

2010-cu il yanvarın 27-də Macarıstanın Budapeşt şəhərində, 2010-cu ilin aprel ayında nəzərdə tutulan Qızıl Xaç və Qızıl Aypara 8-ci Avropa Regional Konfransına hazırlıq işləri ilə bağlı görüşdə İcraçı Katibin müavini Şaban Şayev iştirak etmişdir.

2010-cu il aprelin 9-da İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Seçki komitəsinin növbəti iclası keçirilmişdir. Seçki Komitəsinin üzvü Avropa qitəsini təmsil edən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcraçı Katibinin müavini Şaban Şayev iştirak etmişdir.

2010-cu il 13-16 aprel tarixlərində Avstriyanın Vyana şəhərində Qızıl Xaç və Qızıl Aypara 8-ci Avropa Regional Konfransı keçirilmişdir. Konfransda Azərbaycan Qızıl Aypara Cəmiyyətini İcraçı katib Bəylər Talıbov və onun müavini Şaban Şayev təmsil etmişlər.

2010-cu il 07-14 aprel tarixlərində Avstriyanın Vyana şəhərində Avropa Milli Cəmiyyətləri Gənclər Təşkilatlarının liderlərinin növbəti görüşü keçirilmişdir. Görüşdə Azərbaycan Qızıl Aypara Cəmiyyətini Gənclər Komitəsinin sədr müavini, Silahlara Qarşı Mübarizə Proqramının məsləhətçisi Bayram Vəliyev təmsil etmişdir.



2010-cu il iyun ayının 07-dən 11-dək İtaliyanın Roma şəhərində “Narkotik maddələrindən istifadə edənlər arasında zərərin azaldılması” mövzusunda 15-ci treyninq həyata keçirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyətini həmin təlimdə İcraçı Katib Bəylər Talıbov və İcraçı Katibin müavini Şaban Şayev təmsil etmişlər. Görüş zamanı iki Milli Cəmiyyət arasında sözü gedən məsələyə dair əməkdaşlığın gələcək perspektivləri müzakirə olmuşdur.

2010-cu ilin iyul ayında Türk Qızıl Ay və Avstriya Qızıl Xac Cəmiyyətilərinin təçkilatçılığı ilə müvafiq olaraq Bursa və Vyana şəhərində gənclər və könüllülər üçün keçirilən yay istirahət düşərgəsində 5 nəfər gənc istirahət etmişdir. Gənclər üçün istirahət zamanı təhsil və dostluq treyninqləri, hərəkata aid treyninqlər, intellektual oyunlar, tarixi muzeylərdə gəzintilər və.s təşkil olunmuşdur.

2010-cu il 13-17 sentyabr tarixində İsveçrənin Cenevrə şəhərində Humanitar Prinsiplər və Diplomatiya üzrə Məsləhətçi Şuranın görüşündə Cəmiyyətin İcraçı Katibi Bəylər Talıbov iştirak etmişdir.

2010-cu il 24-28 sentyabr tarixində Belorusiyanın Minsk şəhərində Beynəlxalq Qızıl Xaç/Aypara Cəmiyyətləri Federasiyası İİV/QİÇS, Vərəmlə mübarizə Avropa Şəbəkəsinin (ERNA-European Network QİÇS) 14-cü konfransı «İİV/QİÇS, Vərəm xəstəliyinə duçar olmuş insanlara qarşı ayrı-seçkilik və təcrid olunma» şuarı ilə keçirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyətini “Sağlamlıq və qayğı” şöbəsinin müdiri Mətanət Qaraxanova və “Gənclər və Könüllülər” şöbəsinin müdiri Xalidə İsgəndərova təmsil etmişlər.

2010-cu il 21-22 oktyabr tarixlərində Ukraynanın paytaxtı Kiyev şəhərində Qızıl Xaç və Qızıl Aypara Milli Cəmiyyələri Rəhbərlərinin, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının prezidenti və Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndə heyətinin iştirakı ilə Regional görüş keçirilmişdir. Görüşdə Azərbaycan Qızıl Aypara Cəmiyyətini İcraçı Katib Bəylər Talıbov və müavini Şaban Şayev təmsil etmişlər.

2010-cu il 15-19 noyabr tarixində İsveçrənin Cenevrə şəhərində Qızıl Xaç /Qızıl Aypara Hərəkatına həsr olunmuş Milli Cəmiyyətlərin Liderləri üçün giriş kursu keçirilmişdir. Sözü gedən kursda Cəmiyyətin vitse-prezident Qafar Əsgərzadə və İcraçı Katibin müavini Şaban Şayev iştirak etmişlər.

2010-cu il 23-28 Noyabr tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin proqram koordinatoru Elşən Səlimzadə, FHHC şöbəsinin müdiri Fərid Seyidzadə və həmin şöbənin assistenti Yasəmən Cabbarova "AzQAC yerli bölmələtinin vastəsilə təhlükəsiz icmaların yaradılması" mövzusunda seminarda iştrak etmək üçün Gürcüstana səfər etmişlər.

2010-cu il 01-05 dekabr tarixlərində Böyük Britaniya Qızıl Xaç Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç Komitəsinin təşkilatçılığı ilə London şəhərində "Qızıl Xaç/Qızıl Aypara" brend təşəbbüsü üzrə seminar keçirilmişdir. Həmin seminarda Cəmiyyətin İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Pərviz Nəzərov iştirak etmişdir.

2010-cu il 06-10 dekabr tarixində Fransanın Kligental şəhərində "Layihələrin yazılması" üzrə treyninqdə Azərbaycan Qızıl Aypara Cəmiyyətini "Sağlamlıq və qayğı" şöbəsinin müdiri Mətanət Qaraxanova və "Gənclər və Könüllülər" şöbəsinin müdiri Xalidə İsgəndərova təmsil etmişlər.





2010-cu il 08-10 dekabr tarixlərində Qırğızıstanın paytaxtı Bişkek şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının və Qırğızıstan Qızıl Aypara Cəmiyyətinin təşkilatçılığı ilə Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərində layihələrin və ümumiyyətlə fəaliyyətlərin planlaşdırılması, monitorinqi, qiymətləndirilməsi və hesabatının hazırlanması üzrə görüş keçirilmişdir. Görüşdə Azərbaycan Qızıl Aypara Cəmiyyətini Gənclər Komitəsinin sədr müavini, Silahlara Qarşı Mübarizə Proqramının məsləhətçisi Bayram Vəliyev təmsil etmişdir.

2010-cu ilin dekabr ayının 12-19 tarixlərində İsrailin Tel-Əviv şəhərində axtarış üzrə beynəlxalq görüş keçirilmişdir. Görüşdə Axtarış xidmətinin rəhbəri Afət Mirzəzadə, assintenti Fərəh Hüseynova və Yerli bölmələrin inkişafı proqramının koordinatoru Elnur Hacıbabayev iştirak etmişlər. Görüş zamanı Azərbaycandan olan sorğular axtarış üzrə mütəxəssisə verilmişdir.

İyunun 2-də Qırğızıstan Qızıl Ay Cəmiyyətinin nümayəndələri Vitaliy Kael və Aydost Candullayev fandreyzinq sisteminin qurulması və inkişaf etdirilməsi, fandreyzinq işinin öyrənilməsi və işlə yaxından tanışlıq məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinə səfər etmişlər. Səfər zamanı qonaqlar üçün treninq təşkil edilərək cəmiyyətin fandreyzinq fəaliyyətinin iş prinsipi və onun mahiyyəti barədə ətraflı məlumat verilmiş, bu barədə müvafiq təqdimat edilmişdir.

İyunun 21-də Gürcüstan Qızıl Xaç Cəmiyyətinin nümayəndələri Nino Şkirtladze, Nia Burtikaşvili və Tina Kikabidze fandreyzinq sahəsindəki fəaliyyətinin inkişafı ilə bağlı təcrübə mübadiləsi aparmaq məqsədilə Qızıl Aypara Cəmiyyətinə səfər etmişlər. Səfər zamanı qonaqlara cəmiyyətin fandreyzinq məqsəd və fəaliyyəti barədə ətraflı məlumat verilmiş, bu barədə müvafiq təqdimat edilmişdir.

2010-ci il 26-28 Avqust tarixində Danimarka Qızıl Xaç Cəmiyyətinin əməkdaşları Byarke Skaanninq və Nikolsun Eva Mariann Azərbaycana səfər etmişlər, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əməkdaşlar ilə "AzQAC yerli bölmələrinin vasitəsilə təhlükəsiz icmaların yaradılması" mövzusunda görüş keçirilmişdir. Bu görüşdə proqram kordinatoru Elşən Səlimzadə, FHHC şöbəsinin müdiri Fərid Seyidzadə və həmin şöbənin assistenti Yasəmən Cabbarova da iştirak etmişlər.



2010-cı il 22-25 Noyabr tarixində Norveç Qızıl Xaç Cəmiyyətinin nümayəndə heyəti Azərbaycana səfər etmişlər. Səfərin məqsədi Norveç Qızıl Xaç Cəmiyyətinin maliyyə dəstəyi ilə həyata keçirilən lahiyələrin qiymətləndirilməsi olmuşdu.

# Təşkilati inkişaf

### Məqsəd:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarının gücləndirilməsi.

Cəmiyyətin regional mərkəzlərinin, şəhər, rayon, sahə bölmələrinin və ilk təşkilatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi.

Mərkəzi və yerli səviyyədə səmərəli və özünü doğruldan fəaliyyətləri həyata keçirmək məqsədilə, Azərbaycan Qızıl Aypara Cəmiyyətini milli və beynəlxalq müstəvidə zavallı insanlara dəstək olan güclü təşkilata çevirmək.

Üzvlərininin və könüllülərinini sayının artırılmasına nail olmaq.

### Fəaliyyətlər:

2010-cu ilin əvvəlindən etibarən, QAC-ın bütün regional mərkəzlərinin və yerli bölmələrinin iş və tədbirlər planı tərtib edilərək təsdiq edilmişdir. Ötən ilin illik yekun hesabatları analız edilərək nəticələr müəyyən edilmişdir.

AzQAC-ın 90 illiyinə hazırlıqla əlaqədar lazımi sənədlər qaydaya salınmış, təşkilati məsələlər həll edilmişdir. İl ərzində Az.QAC Rəyasət Heyətinin 3 iclası keçirilmişdir.

2010-cu il ərzində rüblər üzrə Regional koordinatorlarla mütəmadi görüşlər keçirilmiş, gündəlik təşkilati məsələlər diqqət mərkəzində saxlanılmışdır. Yerli bölmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində müvafiq işlər görülmüşdür. 35 yerli İcra Hakimiyyəti orqanlarına köməkliklə əlaqədar müvafiq məktublar göndərilmişdir.





2010-cu ilin mart ayının 10-da QAC-ın 90 illik ildönümü təntənəli surətdə qeyd edilmişdir. Tədbirlərin keçirilməsi məqsədilə Yerli Bölmələrlə iş sektorunun əməkdaşları müvafiq təşkilati məsələləri həll etmişlər. Eyni zamanda digər yerli bölmələr bu münasibətlə bir sıra silsilə tədbirlər həyata keçirmişlər. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 90 illik yubileyi ilə əlaqədar respublikanın bütün rayonlarında yerli İcra Hakimiyyətləri başçılarının iştirakı ilə təntənəli yubiley mərasimləri keçirilmişdir.

2010-cu ilin maliyyə planına uyğun olaraq rüblər üzrə üzvlük haqlarının ödənişinin təmin olunması daim diqqət mərkəzində saxlanılmışdır.

2010-cu ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bütün yerli bölmələri üzrə hesabat seçki konfransları keçirilmişdir. Konfranslarfda rayon bölmələri, ilk təşkilat rəhbərləri iki illik fəaliyyətləri barədə geniş hesabat vermişlər. Bəzi rayon bölmələrində kadr islahatları aparılmışdır.

Qusar Rayon Bölməsinin daxili imkanları çərçivəsində həmin rayonun Zindanmuruğ kənd sakini Samirə Şıxcamalova üçün 12 sentyabr 2010-cu il tarixdə toy mərasimi keçirilmişdir. Toy mərasiminin keçirilməsi üçün 6500 manat həcmində maliyyə vəsaiti ayrılmışdır. Toy mərasimində rayon icra hakimiyyətinin nümayəndəsi də iştirak etmişdir.

Təhsil və Səhiyyə İdarələrində təşkilati məsələlərlə bağlı mütəmadi görüşlər keçirilmişdir. Müxtəlif idarə və müəssisələr tərəfindən daxil olmuş müraciətlərə baxılaraq aidiyyatı üzrə müvafiq tədbirlər görülmüşdür.

Hər ili olduğu kimi mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə iş birliyi və Cəmiyyətə göstərilən köməkliklər barədə "Hesabat" hazırlanaraq əlaqədar dövlət və hökumət strukturlarına təqdim olunmuşdur.

### Nailiyyətlər:

2009-cu ildə üzvlərin sayı 265156 nəfər təşkil etdiyi halda 2010-cu ildə cəmiyyət üzvlərinin sayı 270310 nəfərə və İlk Təşkilatların sayı isə 7225-ə çatmışdır.

Yerli bölmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində müvafiq işlər görülmüşdür. Belə ki, il ərzində 5 rayon bölməsi xidməti avtomobillə təmin edilmişdir.

### Problemlər:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinə aid bütün hüquqi sənədlərdən RM, yerli bölmələrdə və ilk təşkilatlarda istifadə üçün onların çoxsaylı çapına maliyyə vəsaitinin olmaması.

Regional Mərkəzlərin və Yerli bölmələrin yerləşdiyi ofislərin internet xətti ilə təmin edilməməsi.

Üzvlük biletlərinin istifadə müddətinin qurtarması səbəbindən yeni üzvlük biletlərinin çap edilməməsi.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yeni məlumat kitabçasının yenilənməməsi.




**Dioqram 3. İlk Təşkilatların sayı**




**Dioqram 4. Üzvlərin sayı**

# Gənclər və könüllülər

### Ümumi məqsəd

AzQAC-da gənclər və könüllülərin idarəetmə,cəlbolunma və qeydiyyatının yaxşılaşdırılması.

Effektiv gənclər və könüllülər idarəetmə sisteminin inkişaf etdirilməsi.

Könüllülər üçün keçirilən Treyninq Modul kurslarının məqsədi:

- Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tarixi barədə bilikləri yaymaq;

- 7 Fundamental Prinsiplər haqqında məlumat;

- Yeni gələn könüllüləri QAC-ın rayon bölməsinin fəaliyyətində iştirakı və iş görməyə həvəsləndirməkdir.

### Fəaliyyətlər

İl ərzində 3014 nəfər modul treyninq kursunu dinləmiş, 90 nəfər Bakı, Mingəçevir, Sumqayıt, Lənkəran, Sabirabad, Gəncə RM-nin könüllülərini isə modul treyninqlə əlaqədar təlimatçı kimi hazırlanmışdır. Həmin təlimatçılar rayonlarda əhali üçün treyninqlər həyata keçirirlər.



Lider treyninq kursları 7 regional mərkəzin gənclərlə iş üzrə koordinatorları, icma proqramı çərçivəsində fəaliyyət göstərən könüllülərə və həmin rayonun gənclər üzrə təlimatçıları və könüllülər üçün ümimilikdə 160 nəfərə lider treninq kursları keçirilmişdir.

- Lider kimdir?
- Kurs zamanı müxtəlif oyunlar;
- Şəxsi və kommunikasiya bacarıqları;
- Layihə nə deməkdir?
- Layihənin yazılması
- Partnyoların və donorların axtarışı
- Donorlarla praktiki iş

Uşaq evlərində fəaliyyət göstərən könüllülər üçün sosial təlimlər.

Bakı,Sumqayıt, Lənkəran, Gəncə, Mingəçevir rayonlarının uşaq evlərində fəaliyyət göstərən 110 nəfər könüllü üçün sosial treyninq keçirilmişdir.



Proqrama əsasən 5 RM-in və hər bir mərkəzin ərazisində yerləşən 4 məktəbdə hər birində 25 şagird olmaqla 500 nəfər məktəbli üçün "İlk yardım" və hərəkatın yayımı haqqında 3 ay ərzində təlimlər aparılmışdır. Təlimin nəticəsi kimi 3 etapdan ibarət yarış keçirilmişdir, bu yarışlar 1-ci mərhələdə rayonda məktəblərarası, 2-ci mərhələ RM arasında, 3-cü mərhələdə Gəncə şəhərində yekun yarışlar keçirilmişdir. Yarışda qalib gələn şagirdlər mükafatlandırılmışdır. Gəncə, Lənkəran, Mingəçevir, Sumqayıt, Sabirabad RM-də məktəblilər və tələbələr üçün İİV/QİÇS, sağlamlıq, humanitar dəyərlər, ilk yardım, liderlik, fövqəladə hallara hazırlıq, sosial iş kimi məşğələlər keçirilərək təqdimatlar aparılmışdır. Ümumilikdə 3690 nəfər iştirak etmişdir. Bu səpkidə tədbirlərin keçirilməsi gələcəkdə daha da çox QAC-nə könüllülərin cəlb olunmasına səbəb olacaqdır.

# Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşləri

### Məqsəd:

Mərkəzi və regional səviyyədə işçilər və könüllülər arasında əlaqələri yaxşılaşdırmaq.

Daha yaxşı fəaliyyət göstərməsinə köməklik etmək

Regional gənc könüllülər şurası yaratmaqla könüllülər üçün yaxşı idarəetmə sistemini təşkil etmək.

İl ərzində 3 mərkəzi gənc könüllü Şurasının görüşü keçirilmişdir.

### Regional görüşlər:

| | |
|---|---|
| Sumqayıt RM-də görüş | 3 |
| Mingəçevir RM-də görüş | 2 |
| Gəncə RM-də görüş | 4 |
| Lənkəran RM-də görüş | 2 |
| Bakı RM-də görüş | 2 |
| Sabirabad RM-də görüş | 2 |
| Ümumi 15 Mərkəzi və Regional Gənclər Şurasının görüşləri keçirilmişdir. | |

# Könüllülərin elektron qeydiyyatının təkmilləşdirilməsi

### Məqsəd:

Ölkə üzrə könüllülər haqqında məlumat bazasını effektiv şəkildə toplayıb inkişaf etdirməkdir.

Hal-hazırda elektron qeydiyyatı Baş Qərargahın Gənclər şöbəsində, Sumqayıt, Zaqatala, Mingəçevir, İsmayıllı, Şamaxı, Gəncə RM-də yaradılıb. Digər rayon və regionlarda şöbə tərəfindən hazırlanmış elektron qeydiyyatı blanklarından istifadə olunur. Gələcəkdə nəzərdə tutulub ki, regionlarda elektron qeydiyyatlardan istifadə olunsun. Hər ay rayon bölmələrindən könüllülərin qeydiyyatının məlumatı şöbəyə çatdırılaraq elektron qeydiyyatına alınır. Bu da könüllülərin hansı proqramlarda fəaliyyət göstərməsinə və koordinasiya olunmasına dəqiqlik gətirir. İl ərzində ümumilikdə 19.810 nəfər QAC-nin könüllüsüdür.

# Əlil uşaq evlərində sosial fəaliyyət

### Məqsəd:

Əlil uşaqlara maddi və mənəvi yardım göstərmək.

Onları təhsilləndirmək və dərslərinə köməklik göstərmək.

Qismən də olsa onların müəyyən qayğılarını unutdurmaq.

Bakının Şağan qəsəbəsi, Lənkəran, Sumqayıt, Gəncə, Mingəçevir rayon və şəhərlərində yerləşən kimsəsiz uşaq evlərində və Sumqayıtda evlərdə yaşayan əlil uşaqlarla sosial işlər aparılır. Həmin sosial işlər aşağıdakılardır:

Uşaqların gəzintisi, rəsm, toxumaq, idman, musiqi, dərslərinə kömək, təsviri incəsənət və s.

Müxtəlif fəaliyyətləri həyata keçirmək üçün ləvazimatlar alınıb uşaq evlərinə və könüllülərə istifadə üçün verilmişdir

Bakı, Sabirabad, Sumqayıt, Mingəçevir, Lənkəran, Gəncə RM-yerli bölmələrində könüllülərin cəlb olunması kampaniyası keçirilmişdir.

Tədbir kampaniya xarakteri daşıyırdı. Tədbirlərdə regional mərkəzlərin və rayon bölmələrinin könüllüləri, Mərkəzi Gənc Könüllülər Şuralarının üzvləri, Regional Mərkəzlərin gənclərlə iş üzrə koordinatorları, könüllülər və.s ümumilikdə 10258 nəfər iştirak etmişdir.Tədbirin proqramı aşağıdakı kimidir:

- Gənclər və könüllülər şöbəsinin təqdimatı;
- İİV/QİÇS proqramının təqdimatı;
- Sosial iş;
- Sağlamlıq və qayğı;
- İlk yardım;
- Beynəlxalq əlaqələr;

2-ci hissə
- Qruplarla iş;
- Qrupların dəqdimatı;
- Furşet və diskoteka;

### Fəaliyyətlər

Bu il iyul ayında Lənkəran rayonunda yerləşən kimsəsiz uşaq evində Qızıl Aypara Cəmiyyətinin Gənclər və könüllülər şöbəsi tərəfindən 6 günlük "Təhsil yönümlü yay istirahət düşərgəsi" təşkil edilmişdir.

Düşərgədə 47 uşaq və yeniyetmə, 7 könüllü, 6 uşaq evinin müəllim heyəti, şöbənin və RB-nin əməkdaşları iştirak etmişlər. Ümumilikdə, 60 nəfərin iştirakı ilə keçirilən yay istirahət düşərgəsindən proqrama əsasən Azərbaycan QAC-nin, BQXK və BQX və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası haqqında məlumat və video klipə baxış, müxtəlif treyninqlər, intellektual, rəsm və idman yarışları, tarixi muzeylərdə gəzintilər, musiqi əyləncəli proqramlar təşkil olunmuşdur.

Düşərgənin keçirilməsində məqsəd uşaqların yay tətili zamanı vaxtlarını əyləncəli keçirmək, onları psixoloji sarsıntılardan azad etmək, onlara sosial qayğı göstərməklə, qismən də olsa müəyyən qayğılarını unutdurmaqdır.

İyun ayında Lənkəran, Mingəçevir və Sabirabad RM-dən olan 25 nəfər gənc könüllü üçün 3 günlük təhsil yönümlü yay istirahət düşərgəsi keçirilmişdir. Düşərgədə iştirak edən könüllülərə Liderlik, Sosial, İlk yardım, QİÇS və s. kimi treyninqlər aparılmış, müxtəlif intellektual oyunlar, gəzintilər, əməkdaşlıq mübadiləsi üçün uşaq evlərinə baxış kimi işlər görülmüşdür.



12 avqust "Beynəlxaq Gənclər günü" ilə əlaqədar QAC-nin Lənkəran Regional Mərkəzinə daxil olan rayon bölmələrinin 44 nəfər gənç könüllüsü üçün dəyirmi masa təşkil edilmişdir. Gənclər tərəfindən aparılan fəaliyyətlərin koordinasiya olunması və müzakirə etmək imkanı yaradılmışdır. Müzakirələr zamanı gənclər əsasən sosial və maarifləndirilmə sahəsinə üstünlük verməklə,gənclərimizin bilik səviyyələrinin artırılması, mənəvi təfəkkürlərinin inkişafı, sağlam həyat tərzinin formalaşması və ümumiyyətlə gənclər arasında müvafiq səmərəli fəaliyyətləri həyata keçirmək, gənclər arasında qarşılıqlı anlaşma, sülhün və həmrəyliyin bərqərar olması yönümündə məhsuldar fəaliyyətlər həyata keçirmələri kimi fikirlər səslənmişdir. Dəyirmi masa başa çatdıqdan sonra gənc könüllülər Lənkəran rayonunda yerləşən uşaq evinə baş çəkmişlər. Onlar bir gün ərzində uşaqlarla birlikdə müxtəlif (futbol, intellektual, stolüstü) oyunlar, musiqili əyləncəli proqramlar təşkil etmişlər. Tədbirdə iştirak edən gənclər uşaqlara qayğı və diqqət göstərməklə yanaşı özlərinin inkişafına yardımçı olurlar.

Dekabrın 3-də Beynəlxalq Muğam Mərkəzində 1 dekabr "Ümumdünya QİÇS-lə mübarizə günü " və 5 Dekabr "Beynəlxalq könüllülər günü" münasibəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı ilə tədbir keçirilmişdir. Çox saylı könüllülərin iştirak ilə keçirilən tədbirdə Azərbaycan Qızl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanov çıxış edərək bildirmişdir ki, insan yaranarkən onun uğurları, müvəffəqiyyətləri və inkişafı ilə bərabər olaraq problemləri və çətinlikləri də ona yoldaş olmuşdur.

Tədbirdə 348 nəfər hökümət, qeyri-hökumət təşkilatlarının, təhsil ocaqlarının tələbə və müəllim heyətləri, QİÇS xəstələri və onların ailələri iştirak etmişlər.

Tədbirin sonunda respublikanın tanınmış müğənilərinin iştirakı ilə bədii proqram olmuşdur.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər və Könüllülər söbəsi, Gənclər Komitəsi Kəlbəcər rayon bölməsi ilə birlikdə Dünya Azərbaycanlılarının həmrəylik və "Yeni il" münasibəti ilə tədbir kecirmişdir.

Tədbirdə 70 nəfər imkansız ailələrin uşaqları iştirak etmişdir. Tədbir Respublika Əl Oyunları Sarayında Azpetrol şirkətinin dəstəyi ilə həyata keçirilmişdir.Tədbirdə uşaqlar rəngarəng proqramlara tamaşa etmiş, sonda onlara Yeni il hədiyyələri təqdim olunmuşdur.

### Fəaliyyətlər

İl ərzində 3756 əlil, kimsəsiz, xəstə imkansız uşaqlara bir çox tədbir kecirərək uşaqlara sosial, maddi və mənəvi yardım, təhsillərinə və dərslərinə köməklik göstərilmiş, qismən də olsa onların müəyyən qayğıları unutdurulmuş, uşaqlarda sağlam həyat tərzi yüksəltməklə, mənəvi sarsıntıları aradan ğötürülmüşdür.

### Problemlər:

Donorlar tərəfindən maliyyə dəstəyinin mütəmadi olmamaması, fəaliyyətlərimizin gənclər arasında azalmasına və könüllülərimizin itirilməsinə təsir edir.

## Çap materialları

### Məqsəd:

Maarifləndirmə, yayım materiallarının yeni növünü nəşr etdirmək və Az.QAC-ın xüsusilə gənc könüllülərin daha yaxşı fəaliyyət göstərməsinə yardım etmək. Könüllülərlə işləyərkən onların bacarıq və qabiliyyətlərini dəstəkləmək

| Çap materialları | Sayı |
|---|---|
| Təlim kitabçası | 750 ədəd |
| AzQAC loqosu ilə sertifikat | 300 ədəd |
| AzQAC loqosu ilə diplom | 300 ədəd |
| AzQAC loqosu ilə gödəkçə | 300 ədəd |
| AzQAC loqosu ilə papaq | 100 ədəd |
| AzQAC loqosu | 500 ədəd |

Treyninq modul, lider və planlaşdırma kurslarının hazırlanmasında məqsəd:

- Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tarixi;
- 7 Fundamental Prinsip;
- Fəaliyyət haqqında;
- Planlaşdırma;
- Layihələrin yazılması;
- Şəxsi və kommunikasiya bacarıqları;
- Donorlarla iş və s.

### Nailliyyətlər:

Artıq lider, modul, planlaşdırma treyninqlərini keçmiş könüllülər öz regionlarında təlimə başlamışlar. Təlim çox uğurlu nəticələr verməkdədir.

# Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşləri

## Məqsəd:

Mərkəzi və regional səviyyədə işçilərlə könüllülər arasında əlaqələri yaxşılaşdırmaq. Daha yaxşı fəaliyyət göstərilməsinə köməklik etmək və regional gənc könüllülər şurasını yaratmaqla könüllülər üçün yaxşı idarəetmə sistemini təşkil etmək.

## Nailiyyət:

Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşlərinin keçirilməsinin nəticəsi kimi könüllülər artıq rayonlarda koordinasiyanın sərbəst şəkildə idarə olunmasına nail olmuşlar. Hər ay yerli bölmələrdən könüllülərin qeydiyyatına dair məlumat şöbəyə çatdırılaraq elektron qeydiyyatına alınır. Bu da könüllülərin hansı proqramlarda fəaliyyət göstərməsinə və koordinasiya olunmasına dəqiqlik gətirir. Ümumilikdə 19.470 nəfər QAC-nin könüllüsü vardır.

# Gənclər Komitəsi

## Məqsəd:

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Gənclər Komitəsinin (Az.QAC Gənclər Komitəsi) əsas məqsədi Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatını rəhbər tutaraq gənc (uşaqlar, yeniyetmələr, məktəblilər, tələbələr, əlil uşaq və gənclər) insanlar arasında Könüllülük Hərəkatının inkişafı, Beynəlxalq Humanitar dəyərlərin aşılanması, sülh, qarşılıqlı hörmət və anlaşma ideyalarını geniş şəkildə yaymaq, gənclərin asudə vaxtlarının səmərəli keçirməsi məqsədilə, maariflәndirmə, sağlam həyat tərzinin formalaşması və mənəvi rifahının yüksəldilməsi sahəsində fəaliyyətlər həyata keçirməkdən ibarətdir.

## Fəaliyyətlər

Dünyada gənclər iqtisadı inkişafda, sosial dəyişikliklər etməyə qadir olan böyük bir qüvvədir. Gənclərin müxtəlif problemlərini effektli həll etmək məqsədilə



1995-ci ildə BMT-nin Baş Assambleyası gənclərin maraqlarına dair Ümumdünya Addımlar Proqramını qəbul etmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəal könüllüləri təşəbbüs irəli sürərək, gənc oğlan və qızları ətrafına toplayıb 12 Avqust - "Ümumdünya Gənclər Günü" nü qeyd etmişdir.

Adətən, hansısa bir tədbiri keçirmək istəyən şəxs maliyyə axtarışına düşür. Lakin istək güclü olanda maliyyə çox önəmli olmur. Könüllülər maliyyə axtarmadı, onlar sadəcə istədi ki, "Ümumdünya Gənclər Günü"ndə digər gənclərlə görüşsün, öz bilikləri ilə bölüşsün, onlarla söhbət etsin. Dəniz kənarı Milli Parkda kafelərin birində görüş keçirmişlər. Tədbirdə könüllü Zakir Soltanov "Ümumdünya Gənclər Günü"nün mahiyyəti, cəmiyyətin inkişafına təsiredici güvvəsi olan gənclər tərəfindən aparılan fəaliyyətlər barədə məlumat vermişdir. O, cəmiyyətin inkişafı üçün fəaliyyətlərin daha geniş və səmərəli aparılmasında sağlam düşüncəli gənclərin olmasının vacibliyini qeyd etmişdir. Sonra gənclər cəmiyyətdə gənclər (yeniyetmələr) arasında geniş yayılan və onları narahat edən sağlam həyat tərzinin olmaması, İİV QİÇS, vərəm, siqaretçəkmə və narkomaniya, zorakılıq, küçə uşaqları və s. kimi məsələlər ətrafında fikir mübadiləsi aparmışlar. Cəmiyyətdə sağlam düşüncənin formalaşması üçün uşaq və yeniyetmələr, valideynlər arasında təbliğat işlərinin təşkil olunmasının vacibliyini vurğulayan gənclər, bu problemlərlə birgə mübarizə aparmağın mümkünlüyünü qeyd etmişlər. Onlar gələcəkdə tədbirlər planı hazırlamaq və daha çox gəncləri cəlb etmək qərarı vermişlər.

Qızıl Aypara Cəmiyyətinə cəlb olunan gənc könüllülərin həvəsləndirilməsi məqsədilə təmənnasız olaraq 6 günlük ilk yardım treniqləri keçirilmiş və sonda bilikləri yoxlanılaraq, könüllülərə sertifkatlar təqdim olunmuşdur. Həmin könüllülər AzQAC xətti ilə keçirilən ilk yardım kampaniyalarında yaxından iştirak edəcəklər.

## Nailiyyət:

Gənclər ilk yardım vərdişlərinə yiyələnərək bu sahədə bilikləri artırmışlar. AzQAC ətrafında çoxsaylı gənc könüllü yığılaraq cəmiyyətin üzvünə çevrilmişdir.

2011-ci ilin "könüllülər ili"olması ilə əlaqədar Gənclər komitəsi, Gənclər və könüllülər, Sağlamlıq şöbələri birgə gənc könüllüləri və qan azlığından əziyyət çəkən uşaqları bir araya yığaraq tədbir keçirmişdir.Tədbirdə gənclərlə uşaqlar arasında ünsiyyətlərin yaradılması, gələcəkdə bu gənclərin təhsil ocaqlarında qanvermə aksiyasının təşkil olunmasından və s. söhbətlər aparılmışdır.

Hər ay Qızıl Aypara Cəmiyyətinə yeni cəlb olunan könüllülər üçün Beynəlxalq Hərəkat haqqında məlumat xarakterli



sessiyalar aparmışdır. İl ərzində 125 nəfər yeni gəlmiş könüllüyə Beynəlxalq Hərakat haqqında məlumat verilmişdir.

8 May "Ümumdünya QX və QA günü" və "ekologiya ili" ilə əlaqədar QAC-nin əməkdaşları və gənclərdən ibarət ağacəkmə kampaniyası keçirilmişdir. Kampaniyada 330 gənc iştirak etmişdir.

2010-cu ildə Az.QAC-ın Gənclər Komitəsi tərəfindən "Gənclər günü" münasibəti ilə ali təhsil ocaqları olan İdman və Bədən Tərbiyəsi Akademiyası, İqtisad və Texniki universitetlər arasında futbol yarışları keçirilmiş, sonda qalib gələn komandalara hədiyyələr verilmişdir.

2010-cu ildə AzQAC Gənclər komitəsi zavallı insanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra humanitar fəaliyyət həyata keçirmişdir.

AzQAC-ın 90-cı ildönümü ilə əlaqədar bir çox silsilə tədbir həyata keçirilmişdir.Bu tədbirlərdən biri Əzizbəyov rayonunun Şüvəlan qəsəbəsində yerləşən lal və kar uşaqlar üçün internat məktəbində təhsil alan 70 nəfər uşaq üçün "Mc Donals"da tədbir keçirlmiş, uşaqlar üçün orada intellektual yarışlar, musiqili əyləncəli proqramlar hazırlanmışdır. Onlar oyun atraksionlarında əylənmişlər. Sonda uşaqlara dərs ləvazimatlarından ibarət hədiyyələr verilmişdir.

Respublika xəstəxanasının doğum şöbəsində analar üçün sağlam həyat tərzi mövzusunda aparılan söhbətlərdə gənclər komitəsi əməkdaşları fəal iştirak etmişlər və ən imkansız ailələrdən olan doğulmuş

80 nəfər körpə üçün geyim hədiyyələri təqdim etmişlər.

Pirşağı qəsəbəsində yel xəstəliyindən əziyyət çəkən 130 uşaq arasında "Qızıl Aypara "adlı rəsm müsabiqəsi keçirilmişdir. Çəkilən şəkillərdən ibarət sərgi keçirilmiş, qalib gələn uşaqlar mükafatlandırılmışdır.

Novruz bayramında Binəqədi, Yasamal rayonundan olan imkansız ailələrdən ibarət 90 uşaq üçün Oazis restoranında tədbir keçirilmışdir. Tədbir zamanı uşaqlarla əyləncəli və intellektual oyunlar aparılmışdır.

Qızıl Aypara Cəmiyyətinin Gənclər komitəsi 1 iyun "Uşaqların Beynəlxalq müdafiəsi günü"münasibəti ilə Gənclər və könüllülər, Sağlamlıq, Miqrasiya şöbələri və Sumqayıt şəhər bölməsinin əməkdaşları ilə birgə aylıq silsilə tədbirlər həyata keçirmişdir.Keçirilən tədbirlər bir neçə kateqoriyadan olan uşaqlar - imkansız, kimsəsiz, köckün, xəstə uşaqlar üçün nəzərdə tutulmuşdur. Bir qrup uşaq üçün açıq havada gəzinti, tarixi muzeylərə və uşaq əyləncə mərkəzlərinə ekskursiya, intellektual oyunlar, yemək və şirniyyat şüfrəsi təşkil olunmuşdur. Sumqayıt şəhərində keçirilən tədbir isə Sumqayıt şəhərində yerləşən sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi tipli internat məkəbində keçirilmişdir. Tədbirdə 380 uşaq iştirak etmişdir. Tədbirdə uşaqların əl işlərindən ibarət olan sərgi təşkil edilmişdir. Musiqili əyləncəli proqram, kloun şou proqramı uşaqların sevincinə səbəb olmuşdur. Bütün uşaqlar üçün məktəb ləvazimatından ibarət hədiyyələr təqdim edilmişdir.



Eyni zamanda 1 İyun "Uşaqların müdafiəsi günü" ilə əlaqədar QİÇS xəstəliyindən əziyyət çəkən uşaqlar üçün tədbir keçirilmişdir. Tədbir zamanı uşaqlara musiqili-əyləncəli proqramlar, intellektual oyunlar və s. təqdim edilmişdir. Sonda xəstə uşaqlara idman ləvazimatları, uşaqlara müxtəlif hədiyyələr, süni qida məhsulları verilmişdir

### Nailiyyət:

Uşaqların sosial-psixoloji vəziyyətləri yaxşılaşdırılmış. Beynəlxalq Hərakat haqqında biliklər güclənmiş, AzQAC - in imici yüksəlmişdir.

AzQAC-nin 90 illik yubleyi münasibətiilə yetkinlik yaşına çatmamış uşaqlar üçün cəza-çəkmə müəssisəsində tədbir keçirilmişdir. Tədbirin əvvəlində Qızıl Aypara Cəmiyyəti haqqında çəkilmış video çarxa baxış olmuşdur. Sonra Qızıl Aypara və ilk yardım haqqında hazırlanmış mövzulara dair uşaqlar arasında qrup işləri aparılmış, onların əldə etdikləri biliklərin təqdimatı olmuşdur. Sonra uşaqlar üçün Bülbül adına məktəbin uşaqları tərəfindən konsert proqramı verilmış, sonda uşaqlara hədiyyələr təqdim olunmuşdur.

13 sentyabr "Ümumdünya ilk yardım günü" ilə əlaqədar çətin tərbiyə olunan qapalı Uşaq Koloniyasında tədbir keçirilmişdir. Tədbir müsabiqə xarakteri daşıyırdı. Müsabiqədə SOS uşaq kəndinin, uşaq koloniyasının uşaqları iştirak etmişlər. Sonda qalib gələn komandalara hədiyyələr verilmişdir.

15 sentyabr "Bilik günü" ilə əlqədar Nizami, Nərimanov, Nəsimi rayonunda məskunlaşmış məcburi köçkün uşaqlarından ibarət 105 uşaq üçün tədbir keçirilmişdir. Tədbirin sonunda uşaqlara məktəbli cantaları və dərs ləvazimatları verilmişdir.

AzQAC-ın Bərdə rayon bölməsinin nəzdində fəaliyyət göstərən Gənclər mərkəzində il ərzində 20 imkansız ailədən olan gəncə təmənnasız olaraq kompüter kursları keçirilmişdir.

AzQAC-ın Ağcabədi RB-də 115 nəfər əlverişli ödəmə ilə kompüter biliklərinə yiyələnmışdir. Bunlardan 15 nəfər şəhid ailəsi, imkansız ailələrdən olanlar təmənnasız olaraq təhsil almışlar.



# Silahlara Qarşı Mübarizə

### Məqsəd:

Respublikada silahların (minalar, müharibənin partlayıcı qalıqları–MPQ) mülki əhali üçün yaratdığı humanitar problemlərin həllində aparıcı təşkilatlardan biri olan Azərbaycan Qızıl Aypara Cəmiyyətini (AzQAC) bu sahədə daha fəal, təkmilləşmiş, operativ bir qurum kimi tanıtmaq, Respublikada mina və partlamamış hərbi sürsatlardan (PHS) zərər çəkmiş icmalarda "Mina Risklərinin Azaldılması" (cəbhəyanı kəndlərdə uşaqlar üçün "Təhlükəsiz Oyun Meydançaları"nı (TOM) quraşdırmaq), "Mina Üzrə Maarifləndirmə" işlərində ANAMA-ya (Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi Üzrə Milli Agentlik) dəstək olmaq, "Mina/MPQ Hadisələri və Qurbanları, eləcə də Minadan Zərərçəkənlərin Ehtiyaclarına dair Məlumatların Toplanması" üzrə AzQAC və ANAMA arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən fəaliyyəti uğurla davam etdirmək, "Mina Qurbanlarına Yardım" strategiyası çərçivəsində mina və MPQ partlayışı nəticəsində ailə başçısını itirmiş ailələrin sosial vəziyyətinin qismən də olsa bərpa olunması istiqamətində layihələr reallaşdırmaq, icmalar və ANAMA arasında vasitəçi rol oynamaq, mina / MPQ-lərə qarşı fəaliyyət göstərən digər yerli və beynəlxalq, hökumət və qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq etmək.



### Fəaliyyət:

***Mina Risklərinin Azaldılması***

2010-cu ildə AzQAC Trans Global LTD şirkəti ilə tərəfdaşlıq çərçivəsində cəbhə yaxınlığında yerləşən, mina və MPQ problemləri ilə üzləşən 1 kənddə, Almaniya Qızıl Xaç Cəmiyyəti ilə əməkdaşlıq çərçivəsində isə 7 kənddə uşaqları mina və PHS-lə qarşılaşma risklərindən qorumaq məqsədilə "TOM" quraşdırılaraq icmaların istifadəsinə verilmişdir.

Layihənin əsas məqsədi uşaqları oynamaq üçün təhlükəsiz ərazilərdə oyun meydançaları ilə təmin edərək onların mina / MPQ ilə qarşılaşma risklərinin azaldılmasıdır. 2010-cu ildə "TOM" layihəsi aşağıdakı cəbhəyanı kəndlərdə həyata keçirilmişdir:

| | |
|---|---|
| Qazax rayonu | Xanlıqlar kəndi, Abbasbəyli kəndi; |
| Tovuz rayonu | Vahidli kəndi; |
| Gədəbəy rayonu | İnəkboğan kəndi; |
| Ağdam rayonu | Sarıcalı kəndi; |
| Tərtər rayonu | Sarov kəndi; |
| Ağcabədi rayonu | Salmanbəyli kəndi; |
| Füzuli rayonu | Kərimbəyli kəndi; |

## Nailiyyət:

Orta hesabla ümumilikdə bu icmalardan olan təqribən 3000 uşaq,yeniyetmə və gənc mina/MPQ ilə rastlaşma risklərindən qismən də olsa uzaqlaşdırılmışdır. Layihədən sonra bu kəndlərdə mina/MPQ hadisələri baş verməmişdir.

***Mina Üzrə Maarifləndirmə***

2010-cu ildə AzQAC tərəfindən həyata keçirilmiş "TOM" layihəsində (7 rayondan 8 kənddə) hər bir oyun meydançasına minalar və PHS əleyhinə üzərində şüarlar yazılmış və rəsmlər çəkilmiş müxtəlif maarifləndirici lövhələr quraşdırılmışdır. Bu lövhələr vasitəsilə uşaqlar mina təhlükəsi barədə bilavasitə xəbərdar ola bilərlər. Bundan əlavə AzQAC ANAMA tərəfindən hazırlanmış mina üzrə maarifləndirici vəsaitləri (müxtəlif növ bloknotlar, dəftərlər, qələmlər, təqvimlər, kitablar, plakatlar və s.) özünün cəbhə bölgəsində fəaliyyət göstərən 10 Rayon Bölməsinin (Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Göygöl, Goranboy, Tərtər, Ağdam, Ağcabədi, Füzuli) könüllüləri vasitəsilə mina / MPQ təhlükəsi yüksək sayılan kəndlərdə yaymışdır.



***AzQAC və ANAMA arasında əməkdaşlıq***

2007-ci ildən bəri hər il dekabr ayında AzQAC və ANAMA arasında "Mina / MPQ Hadisələri və Qurbanları, eləcə də Minadan Zərərçəkmiş İnsanların Ehtiyacları Haqqında Məlumatların Toplanması" üzrə rəsmi Razılaşma Memorandumu imzalanır. AzQAC 2010-cu il ərzində mina / MPQ partlaması hadisəsi və bu hadisələrdə mina qurbanlarına çevrilən bütün şəxslər haqda məlumatları toplayaraq ANAMAya təqdim etmişdir. 2010-cu ilin dekabr ayında AzQAC-ın və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) təşkilatçılığı ilə Bakı şəhərində Milli Cəmiyyətin "Mina / MPQ Hadisələri və Qurbanları, eləcə də Minadan Zərərçəkmiş İnsanların Ehtiyacları Haqqında Məlumatların Toplanması" fəaliyyətinə cəlb olunmuş 13 rayon bölmə sədrinə ANAMA mütəxəssisləri tərəfindən 1 günlük təkmilləşdirmə kursu keçirilmişdir.

2010-cu il ərzində AzQAC və ANAMA arasında 2 koordinasiya görüşü olmuşdur. Görüşlərdə yuxarıda göstərilən birgə fəaliyyətə və digər ümumi fəaliyyətlərə dair müzakirələr aparılmış və təklif olunmuşdur ki, 2011-ci ildə də tərəflər bu əməkdaşlığı davam etdirsinlər.

## Nailiyyətlər:

AzQAC-ın cəbhə bölgəsində fəaliyyət göstərən rayon bölmə sədrləri hadisə haqqında daha tez bir zamanda, operativ, effektiv və dolğun məlumatlar toplayaraq Baş Qərargahdakı Silahlara Qarşı Mübarizə proqramına göndırirlər. AzQAC Silahlara Qarşı Mübarizə proqramı da öz növbəsində bu məlumatları qeydiyyata alaraq ANAMA-ya təqdim edir.

## Mina Qurbanlarına Yardım

***Mina / MPQ partlayışı nəticəsində ailə başçısını itirmiş ailələrin hadisədən sonrakı sosial durumunun qismən də olsa bərpası***

2010-cu ildə də AzQAC "Mina Partlayışı Zamanı Ailə Başçısını İtirmiş



Ailələrə Sosial Dayaq" layihəsini Qazax rayonu üzrə qeydə alınmış 6 ailədə və Ağstafa Rayonu üzrə qeydə alınmış 7 ailədə həyata keçirmişdir. Layihə çərçivəsində hər mina/PHS qurbanı ailəsinə 1 baş iribuynuzlu heyvan (inək) və bu heyvanın 1 illik müddətə yem tədarükü təqdim olunmuşdur. Layihəyə BQXK maliyyə dəstəyi verərək tərəfdaşlıq etmişdir. (Qeyd edək ki layihəyə 2009-cu ildən başlayaraq start verilmişdir. Bu layihə çərçivəsində AzQAC Tərtər, Qazax, Ağstafa və Tovuz rayonlarında belə ailələrlə tədqiqat işini reallaşdırmışdır. ANAMAnın AzQAC-a təqdim etdiyi bu kimi ailələrlə bağlı mövcud olan statistika üzrə aparılmış tədqiqatda real olaraq hazırda sosial durumu çox aşağı olan ailələr layihə üçün qeydə alınmışdır. Tərtər rayonu üzrə 16 ailə, Qazax rayonu üzrə 6 ailə, Ağstafa rayonu üzrə 7 ailə və Tovuz rayonu üzrə 1 ehtiyaclı ailə qeydə alınmışdır. AzQAC tərəfindən bütün rayonlar üçün layihələr hazırlanmış və tərəfdaşlıq etmək üçün donorlarla müzakirələrə təqdim edilmişdir.

## KİV-lə iş

AzQAC-ın mətbu orqanı olan "Yeni Təfəkkür" qəzeti və Milli Cəmiyyətin rəsmi veb-səhifəsi (www.redcrescent.az) vasitəsilə görülən işlər barədə geniş ictimaiyyət mütəmadi olaraq məlumatlandırılmışdır. Bundan əlavə olaraq AzQAC Silahlara Qarşı Mübarizə proqramı üzrə həyata keçirilən bütün mühüm tədbirləri Azərbaycanın rəsmi dövlət və özəl televiziya kanalları ilə işıqlandırmışdır. Bu proqram çərçivəsində fəaliyyətlərə cəlb olunmuş cəbhəyanı rayonların əsas mətbu orqanları da AzQAC-nin bu sahədə həyata keçirdiyi fəaliyyətlər haqda mütəmadi olaraq məqalələr dərc edirlər.

## Nailiyyətlər:

Cəbhə bölgəsində yaşayan icmalar və ümumiyyətlə ölkə vətəndaşları, dövlət və qeyri-dövlət təşkilatları və s. AzQAC-nin silahlara qarşı mübarizə proqramı çərçivəsində həyata keçirdiyi müxtəlif layihə və fəaliyyətlər haqqında məlumat alaraq onları maraqlandıran məsələlərlə bağlı Milli Cəmiyyətə müraciətlər edirlər.

***Digər əməkdaşlıq***

2010-cu ildə AzQAC Silahlara Qarşı Mübarizə proqramı çərçivəsində ən sıx əməkdaşlığı BQXK ilə həyata keçirmişdir. BQXK tərəfindən bu proqram texniki və maliyyə dəstəyi almışdır. AzQAC Silahlara Qarşı Mübarizə proqramının məsləhətçisi mütəmadi olaraq BQXKnin Azərbaycandakı Nümayəndəliyində bu sahəyə məsul olan müvafiq nümayəndələrlə görüşlər keçirmiş, müzakirələr etmişdir.

"TOM" layihəsi və digər fəaliyyətlərlə əlaqədar olaraq il ərzində AzQAC Silahlara Qarşı Mübarizə proqramının məsləhətçisi BQXK, BQXQACF (Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası), Almaniya

Qızıl Xaç Cəmiyyəti, ANAMA, AzCBL (Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyi), Trans Global LTD və s. təşkilatlarla görüşlər keçirmiş, layihələr ətrafında müzakirələr aparmış, seminar, treyninq və konfranslarda iştirak etmişdir.

### Nailiyyətlər:

Belə görüşlərdə iştirak etmək, tədbirlərə qatılmaq müxtəlif yeni layihələr üzrə əməkdaşlıq perspektivlərini çoxaltmış, yeni tərəfdaşları birgə əməkdaşlığa cəlb etmişdir.

***Beynəlxalq görüşlər***

12-13 oktyabr 2010-cu il tarixlərində Bakı şəhərində Silahlara Qarşı Mübarizə proqramı çərçivəsində həyata keçirilən fəaliyyətlərə dair 2 günlük regional görüş keçirilmişdir. Görüş BQXK-nin təşkilatçılığı ilə qurumun Bakıda yerləşən nümayəndəliyində baş tutmuşdur. Görüşün əsas məqsədi region ölkələrində, yəni keçmiş Sovet İttifaqına daxil olan bəzi ölkələrdə silahlı münaqişələrdən sonra əsas yerli və beynəlxalq humanitar təşkilatlar sayılan BQXK və Milli Qızıl Xaç\Qızıl Aypara Cəmiyyətlərinin Silahlara Qarşı Mübarizə proqramı çərçivəsində həyata keçirdikləri layihələr, fəaliyyətlər haqqında təcrübə mübadiləsi və müzakirələrin aparılması, bu sahədə olan müxtəlif təqdimatların təqdim edilməsi və s. olmuşdur. Görüşdə BQXK-nın Silahlara Qarşı Mübarizə proqramının regional məsləhətçisi Herbi Elmazi, BQXKnın Azərbaycan Nümayəndəliyinin əməkdaşlıq və silahlara qarşı mübarizə proqramı üzrə məsul əməkdaşı Rasim Allazov, AzQAC-nin Silahlara Qarşı Mübarizə proqramının məsləhətçisi Bayram Vəliyev, BQXKnın Çeçenistandakı nümayəndəliyinin silahlara qarşı mübarizə proqramının məsul əməkdaşı Luiza Hacıgeriyeva, BQXKnın Gürcüstandakı nümayəndəliyinin bu sahədə fəaliyyət göstərən məsul əməkdaşı Narine Berikaşvili, Gürcüstan Qızıl Xaç Cəmiyyətinin Silahlara Qarşı Mübarizə proqramının məsul koordinatoru Nia Burtikaşvili, Tacikistan Qızıl Aypara Cəmiyyətinin Minalar Üzrə Maarifləndirmə proqramının koordinatoru Zəncirbek Kərəmov iştirak etmişlər.

### Nailiyyətlər:

Görüşdə Silahlara Qarşı Mübarizə sahəsində fəaliyyət göstərən Qızıl Xaç və Qızıl Aypara ekspertlərinin regional şəbəkəsi yaradıldı və ildə 1 dəfədən az olmayaraq görüşlərin təşkil olunması qərara alındı.



# Fandreyzinq

### Məqsəd:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyə mənbələrini artırmaq.

### Fəaliyyət:

Bakı şəhərində fəaliyyət göstərən müxtəlif ticarət obyektləri və s. ilə razılıq əldə olunaraq 28 ədəd ianə qutusu yerləşdirilmişdir.

Fevralın 5-i "Tiens" şirkətinin maliyyə dəstəyi ilə "Dəcəllər və Daun Sindromlu Uşaqların İctimai Birliyin"də 50 daun sindromlu xəstə uşaq üçün tədbir təşkil olunmuşdur. Tədbirin məqsədi xəstə uşaqları ziyarət etmək, onların mənəvi və sosial rifahını qismən də olsa yüksəltəməkdən ibarət olmuşdur. Tədbirdə şirkət tərəfindən xəstə uşaqlar üçün zəruri olan kalsium vitaminləri paylanmışdır.

Martın 28-i Novruz bayramı ilə əlaqədar, Ombudsman Aparatı ilə birgə yeniyetmələrin 4 saylı islah müəssisəsində 41 yeniyetmə üçün tədbir keçirilmişdir. Tədbir zamanı yeniyetmələr üçün musiqili-əyləncəli konsert proqramı təşkil edilmiş, şirniyyat süfrəsi açılmışdır.

Aprel-iyun ayı ərzində "Hilal Group" şirkətlər qrupunun rəhbəri Hilali Elgünün təşəbbüsü ilə, Bakının Nəsimi və Yasamal rayonunda yaşayan ahıl, tənha qocalar, həmçinin, Sumqayıt Qadın Əlillər Cəmiyyətində məskunlaşmış əlillər ziyarət edilmişdir. Fandreyzinq şöbəsinin işçiləri və Hilali Elgünün dostlarından ibarət bir qrup, qocaların yaşadıqları ünvanlara səfərlər etmiş, onlara qoyun ətindən ibarət yardım etmişlər. Səfərin məqsədi ehtiyacı olan ahıl, tənha qocalara diqqət və qayğı göstərərək, onlar arasında mənəvi cəhətdən ruh yüksəkliyi yaratmaqdan ibarət olmuşdur. Humanitar tədbirin nəticəsi olaraq 60 qoca arasında 60 kq dan çox qoyun əti paylanılmışdır.



Mayın 28-i "Respublika günü" ilə əlaqədar Ombudsman Aparatı ilə birgə qadınların 4 saylı cəzaçəkmə müəssisəsində islah olunan 330 qadın üçün tədbir keçirilmişdir. Tədbirin məqsədi islah olunan qadınların mənəvi rifahını yüksəltmək, onlara hədiyyə bağlamalarını təqdim etməkdən ibarət olmuşdur. Tədbirdə tanınmış müğənnilərin iştirakı ilə musiqili-əyləncəli konsert proqramı təşkil edilmiş, qadınlara FBİ şirkətinin dəstəyi ilə Crem 21-in məhsulları təqdim edilmişdir.

İyunun 1-də 1 iyun "Uşaqların Beynəlxalq Müdafiəsi günü" ilə əlaqədar Ombudsman Aparatı ilə birgə yeniyetmələrin 4 saylı cəzaçəkmə müəssisəsində islah olunan 41 yeniyetmə üçün tədbir keçirilmişdir. Tədbirin məqsədi islah olunan yeniyetmələrin mənəvi rifahını yüksəltmək, onlara hədiyyə bağlamaları təqdim etməkdən ibarət olmuşdur. Tədbirdə, tanınmış aparıcı İlkin Həsəni, müğənni İntizar, meyxana ustası Elşən Xəzər, Vahid Qədim, Qala və Dəyirman qrupunun iştirakı ilə musiqili-əyləncəli konsert proqramı təşkil edilmişdir. İslah olunan yeniyetmələrə Hilali Group şirkəti tərəfindən alt geyim dəsti, futbol və basketbol topları və müxtəlif şirniyyatlar təqdim edilmişdir.

İyunun 17-si Bakı Əlillər Cəmiyyətində AGAT təşkilatının, (Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası ) Hilali Group və Qızıl Aypara Cəmiyətinin dəstəyi ilə 150 əlil üçün tədbir təşkil edilmişdir. Tədbirin məqsədi əlillərin mənəvi rifahını yüksəltmək, onlara diqqət və qayğı göstərməkdən ibarət olmuşdur. Tədbirdə əlillər üçün musiqili-əyləncəli konsert proqramı təşkil edilmiş və yemək süfrəsi açılmışdır.

Ümumilikdə il ərzində Qızıl Aypara Cəmiyyətinin humanitar fəaliyyətinin daha



genişləndirmək və bu məqsədlə cəmiyyətin maliyyə bazasını gücləndirilmək üçün fandreyzinq siyasətinə uyğun olaraq müxtəlif şirkət və obeyktlərin məsul şəxsləri ilə bir sıra işgüzar görüş keçirilmişdir. İl ərzində donorlarla əməkdaşlıq davam etdirilmiş, humanitar kampaniyalar və layihələr barədə donorlara müraciətlər edilmişdir. Belə ki, fəaliyyətlərin həyata keçirilməsində dəstək göstərən əməkdaşlardan Ombudsman Aparatının, şirkətlərdən Tiens, Hilal Group, FBİ, AGAT təşkilatının adını qeyd etmək olar.

### Nəaliyyətlər:
- Ticarət obyektlərində və s.yerlərdə 28 ədəd ianə qutusu qoyulmuşdur.
- "Tiens" şirkəti ilə işgüzar münasibətlər qurulmuşdur.
- Fandreyzinq şöbəsi tərəfindən 6 tədbir təşkil edilmişdir.

### Problemlər:
- Layihələrin dəstəklənməsində kifayət qədər yerli donorların olmaması.
- Fandreyzinq fəaliyyətinin həyata keçirimәsi üçün kifayət qədər maliyyənin olmaması.

# Yerli bölmələrin inkişafı

### Məqsəd:
Sosial və sağlamlıq faktorlarını nəzərə almaqla icmalarda imkansızlığın azaldılmasına nail olmaq məqsədilə Azərbaycan Qızl Aypara Cəmiyyətinin ümumi strukturlarının və imkanlarının gücləndirilməsi.

### Fəaliyyətlər
AzQAC-ın Yerli Bölmələri icmalarla iş aparmaq üçün bir sıra müxtəlif fəaliyyət həyata keçirmişlər.Lənkəranda 40 kimsəsiz uşaq üçün yay düşərgəsi təşkil edilmişdir. Düşərgənin gündəliyinə ilk yardım, səhiyyə maarifi, hərəkatın Fundamental Prinsipləri və humanitar dəyərlər üzrə təlim sessiyası daxil olmuşdur. Habelə, Qızıl Ayparanın fəaliyyətinə və tarixinə dair bir sıra turnirlər keçirilmişdir. Lənkəran bölməsi 40 uşağı gəzintiyə aparmışdır. Layihədə iştirak edən bölmələrin könüllüləri kimsəsiz tənha insanlara köməklik göstərmək məqsədi ilə yerli gəncləri (35 nəfər) səfərbər etmişdir. 68 tənha təqaüdçüyə müntəzəm baş çəkmək məqsədilə gənclərdən ibarət dəstə təşkil edilmişdir. Tənha qocalara baş çəkərkən könüllülər onların evlərini təmizləmiş, bazarlıq etmiş, odun doğramış və yemək bişirmişlər. Bölmələrdə yerli əhalinin yığıncaq yerləri yaradılmışdır. Burada sağlamlıq,fəlakətə hazırlıq üzrə icma treninqi və müxtəlif görüşlər təşkil edilmişdir.Bölmələr 10 Mart "Qızıl Aypara günü"nə həsr olunmuş tədbirdə iştirak etmişlər.

Qızıl Aypara Bölmələri tikməyi, rəqs etməyi, musiqi alətlərində ifa etməyi və ya şahmat oynamağı öyrənmək üçün hədəfə alınmış kənd və kiçik kəndlərdə insanların müxtəlif sosial, idman və incəsənət dərnəklərində qruplaşmalarına köməklik etmişlər. Digərləri futbol, voleybol və tennis dəstələri yaratmış, bir sıra idman yarışı keçirmişlər. Bundan başqa peşə təlimi sinifləri yaradılmışdır.

Hazırki layihə tərəfindən hədəfə götürülmüş bölmələr ardıcıl olaraq özlərinin idarəçilik imkanlarını yaxşılaşdırmışlar. 6 bölmə könüllünün elektron qeydiyyata alınması sisteminə malikdir. Bölmənin



işçi heyəti nailiyyətləri və maneələri təhlil etmək məqsədilə müntəzəm şəkildə görüşür.Bu effektiv monitorinq vasitəsi olmuşdur. Hədəfə götürülmüş regionlardan maliyyə və fəaliyyət hesabatlarının alınması yaxşılaşır.

Milli Cəmiyyətlə və yerli icmalar arasındakı boşluq daralmışdır.İnsanların yaşayış şəraitlərini yaxşılaşdırmaq üçün Milli Cəmiyyət icma işinin aparıcısı olacağı güman edilir.Bu ən mühüm nailiyyət olmuşdur.

Qızıl Aypara dəyərləri və prinsiplərinə dair bilikləri yerli əhali arasında yaymaq məqsədilə 24 bölmə könüllüsünə təlim verilmişdir.

Planlaşdırıldığı kimi hədəfə götürülmüş qruplar əhatə edilmişdir.Seçilmiş icmalara Dağlıq Qarabağdan olan məcburi köçkünlər, təqaüdçülər, ailə başçısını itirmiş çox uşaqlı ailələr və digər zavallı qruplar daxil olmuşdur. Hədəfə götürülmüş icmaların əksəriyyətində bölmələr uşaqlara dəstək üzrə müxtəlif qrupların, gənc qadınlar və kişilər üçün bacarıqların öyrədilməsi üzrə treninqlərin yaradılmasına köməklik etmişlər. Bütün kəndlərdə qadın bölmələri yaradılmışdır.

Azərbaycan QAC- proqram koordinatoru layihənin fəaliyyətini yoxlamaq və davamlı treninq keçmək,məsləhətlər vermə məqsədilə bölmələrə səfərlər etmişdir.

Qeyd etmək lazımdır ki, bilik mübadiləsi almaq üçün layihə koordinatoru dekabr ayında İsrail Magen David Adom Cəmiyyətinin dəvəti ilə həmin ölkəyə səfər etmişdir.

### Nailiyyətlər
Yerli bölmələr hazırkı layihə vasitəsilə bir sıra bacarıq və bilik, həmçinin əhalinin inamını və hörmətini qazanmışlar. Bölmələrin imkanlarının gücləndirilməsinə kömək edəcək. Bölmələr əldə etdikləri təcrübələrini digər rayonlardakı həmkarları ilə bölüşməyə hazır olduqlarını bildirmişlər. Hazırkı layihənin digər mühüm cəhəti odur ki, o Milli cəmiyyətdəki ümumi proqram inteqrasıyasını və əlaqələndirmə prossesini hərəkətə gətirir. Bu da effektiv proqramlaşdırma üçün əhəmiyyətlidir.

### Problemlər
- Planlaşdırma zamanı real vəziyyətin nəzzrə alınmaması;
- AzQAC bölmələrinin inkişafı üçün donorların olmaması.

# Humanitar yardım

## Məqsəd:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək, yardıma ehtiyacı olan ahıl, tənha-xəstə insanlara, aztəminatlı məcburi köçkün ailələrə, təbii fəlakətlərdən zərər çəkmiş zavallılara müxtəlif formada köməklik göstərmək, humanitar dəyərləri rəhbər tutaraq, müxtəlif tədbirlər keçirməklə insanlar arasında bir-birinə köməklik etməsini aşılamaq;

## Fəaliyyət:

İl ərzində Azərbaycan QAC Katibliyinə, Regional Mərkəzlərə və yerli bölmələrə çoxlu sayda ərizə, telefon zəngləri və müxtəlif səpkili müraciətlərə aidiyyəti üzrə baxılmışdır. Milli Cəmiyyət il ərzində humanist prinsiplərini rəhbər tutaraq, həmişə olduğu kimi müraciətlərlərə fərdi qaydada baxmış, hər bir müraciət barəsində müvafiq qərar qəbul etmiş və imkan daxilində yardım göstərmişdir.



Azərbaycan QAC Prezidenti Novruz Aslanovun təsdiq etdiyi cədvələ uyğun olaraq, hər həftənin çərşənbə günü saat 15-dən Cəmiyyət rəhbərliyinin və Katibliyin humanitar yardım şöbəsinin əməkdaşının iştirakı ilə Bakı Regional Mərkəzində yardıma ehtiyacı olan aztəminatlı insanların qəbulu təşkil olunmuşdur.

## Aztəminatlıların qeydiyyata alınması üzrə:

Cəmiyyətin missiyasına aidiyyəti olan zavallı insanların bölgələr üzrə sayının dəqiqləşdirilməsi və qeydiyyat siyahılarının tərtibi işi daim davam etdirilmiş və aztəminatlıların qeydiyyata alınması yerli bölmələrin fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

## "Mərhəmət sorağında" pilot layihə üzrə:

Bakı şəhərində yaşayan və qeydiyyatda olan bir qrup daha çox yardıma və tibb-sosial qayğıya ehtiyacı olan zavallının rifahını qismən də olsa yaxşılaşdırmaq məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanovun təşəbbüsü ilə 01 avqust 2008-ci il tarixdən başlanmış "Mərhəmət sorağında" adlı pilot layihə 2010-cu ildə də davam etdirilmişdir.

Qeyd olunduğu kimi layihənin həyata keçirilməsində əsas məqsəd zavallı insanlara zəruri ərzaq yardımı göstərmək, Katibliyin, rayon bölmələrinin əməkdaşlarının, tibb bacılarının və könüllülərin gücünü səfərbər edərək tibbi-sosial xidmət sahəsinə yönəltməkdir.

"Mərhəmət sorağında" pilot layihə Bakı Regional Mərkəzinin strukturuna daxil olan 11 rayon bölməsi üzrə davam etdirilmişdir. Layihə çərçivəsində Cəmiyyətin prezidentinin təşəbbüsünə qoşulmuş rayon bölmə sədrlərinin şəxsi vəsaitləri ilə edilən yardımlar da nəzərə alınmaqla, ümumilikdə 56 zavallı insana hər ay zəruri ərzaq və tibbi-sosial xidmət üzrə yardım göstərilmişdir.

Ümümilikdə, layihənin əvvəlindən ötən müddət ərzində (avqust 2008 – dekabr 2010) layihə 1590 nəfər zavallını əhatə etmiş və onlara 15312 manat məbləğində zəruri ərzaqla yardım edilmiş, təmənnasız olaraq 6 növ müxtəlif tibbi-sosial xidmət (qan təyziqinin ölçülməsi, xəstəyə iynənin vurulması, təmizlik işlərinin aparılması, imkan olan dərmanla kömək və s. ) göstərilmişdir.

"Mərhəmət sorğında" pilot layihə çərçivəsində 68-89 yaş arasında olan tənha kimsəsiz qocanın fiziki və psixi sağlamlıqlarını qiymətləndirmək məqsədilə sorğu keçirilmişdir. 11 sualdan ibarət sorğu tibb bacıları və könüllülər tərəfindən intervyu üsulu ilə keçirilmişdir. Sorğularda iştirak edən 30 nəfərin hamısı onlara göstərilən humanizmə və qayğıya görə Cəmiyyətin prezidentinə, layihənin həyata keçirilməsində iştirak edən hər kəsə və bütün ayparaçılara öz minnətdarlıqlarını bildirmiş və layihənin davamlı olmasını arzulamışlar. B u humanitar layihənin əhatə dairəsinin gələcəkdə genişləndirilməsi nəzərdə tutulur.



## Qarşılıqlı əməkdaşlıq üzrə:

Respublikada fəaliyyət göstərən müxtəlif xarici, yerli humanitar və özəl təşkilatlarla əməkdaşlıq barədə müxtəlif səviyyədə işlər aparılmışdır.

Hesabat ilində İran İslam Respublikası Qızıl Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasının, "Cargolux"un Azərbaycandakı filialı və s. təşkilatların səmərəli işini xüsusi qeyd etmək olar. Klinikada 322 nəfər aztəminatlı xəstənin təmənnasız tam tibbi müayinə keçməsi üçün köməklik göstərilmişdir.

Qarşılıqlı əməkdaşlıq üzrə işlərin gələcəkdə daha da genişləndirilməsi planlaşdırmışdır.

## Humanitar tədbirlər üzrə:

Cəmiyyət daim diqqətində olan zavallı insanların iştirakı ilə müxtəlif xeyriyyə tədbirləri və görüşlər təşkil etmişdir. İl ərzində AzQAC-ın yerli bölmələri tərəfindən ümumilikdə 145 belə humanitar – xeyriyyə tədbirləri həyata keçirilmişdir. Bu tədbirlərdə yüzlərlə aztəminatlı insan, məcburi köçkün və valideyn qayğısından məhrum olmuş uşaq iştirak etmiş, onlara müxtəlif yardımlar paylanılmış, süfrələr açılmış, əyləncəli proqramlar təşkil edilmişdir.

### Nailiyyətlər

2010-cu ildə Humanitar fəaliyyətdə əvvəlki illərə nisbətən keyfiyyətcə irəliləyişə nail olunmuşdur.

Hesabat ilində tənha qocalara, xroniki xəstələrə, aztəminatlı ailələrə və məcburi köçkünlərə 22285 nəfər zavallı insana 445158 manat məbləğində ərzaq, dərman, gigiyenik və yataq dəstləri, paltar, məişət avadanlıqları, təmənnasız tibbi kartlarla, məktəbli ləvazimatları və s. yardım göstərilmişdir.

- İanə qutularından ayrılmış vəsaitlərin, İran İslan Respublikasının Qızıl Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət gəstərən klinikasında təmənnasız tibbi müayinə keçmək üçün kartların və digər mənbəələrdən daxil olan vəsaitlərin hesabına 682 nəfərə 21310 manat məbləğində;
- BQX və QA Cəmiyyətləri Federasiyasının və digər daxilolmalar hesabına 3390 nəfər təbii fəlakətdən zərər çəkmiş insanlara, məcburi köçkünlərə, aztəminatlı ailələrə və s. 140527 manat məbləğində;
- AzQAC Rayon Bölmələrinin üzvlük haqqı və digər mənbələrdən daxil olan vəsaitlər hesabına 18213 nəfər zavallıya 283321 manat məbləğində humanitar yardımlar edilmişdir.

| Humanitar yardımın mənbəyi | Humanitar yardımın növü | Əhalinin kateqoriyaları | Yardım göstərilən insanların sayı | Məbləğ (manat) |
|---|---|---|---|---|
| Şəxsi ianə, təmənnasız tibbi kartlar və s. | Ərzaq, təmənnasız tibbi müayinə kartları, paltar, və s. | Təhna qocalar, xroniki xəstələr, aztəminatı ailələr, valideyn qayğısından məhrum olmuş uşaqlar | 682 | 21310 |
| Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və digər mənbələrdən daxil olan vəsaitlər | Məişət avadanlıqları, yataq dəstələri , gigiyenik dəstlər və s. | Fövqaladə hallar zamanı zərər çəkmiş insanlar, aztəminatlı ailələr və məcburi köçkünlər | 3390 | 140527 |
| QAC Rayon Bölmələrinin üzvlük haqqı və digər mənbədən daxil olan vəsaitlər | Ərzaq, paltar, dərman, məişət və sanitar gigiyenik dəstlər və s. | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr və məcburi köçkünlər | 18213 | 283321 |
| | | **Cəmi:** | **22285** | **445158** |

### Problemlər

1. Humanitar Yardım məqsədi ilə lazım olan maliyyə vəsaitinin hələlik kifayət qədər olmaması.
2. Humanitar missiyanın daha keyfiyyətlə yerinə yetirilməsi üçün şöbənin nəqliyyat vasitəsinə ehtiyacı olması.

# Dağlıq Qarabağ münaqişəsi ilə bağli itkin düşmüş insanlar haqqında ətraflı məlumatların toplanılması

Lahiyə, 2008- ci il 14 aprel tarixində Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlar üzrə Dövlət Komissiyası və Beynəlxalq Qızıl Xaç Komitəsi arasında bağlanan memoranduma əsasən Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən həyata keçirilir .

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təlim keçmiş könüllüləri itkin düşmüş vətəndaşlarımızın ailələrinə baş çəkir və tam humanitar məqsədilə onların ailələrindən itkin düşmüş insan haqqında ətraflı məlumatlar toplayırlar.

Gələcəkdə insan qalıqlarının aşkar edilməsindən sonra şəxsiyyətin müəyyən olunması prosesində toplanmış ətraflı məlumatlardan istifadə olunacaqdır.



### Fəaliyyətlər

2010–ci ilin yanvar ayından 2010- cu ilin dekabr ayınadək Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təlim keçmiş 46 nəfər könüllüsü Bakı,Sumqayıt şəhərləri və Abşeron rayonuda yaşayan 180 , Füzuli, Beyləqan ,Göygöl, Gəncə, Mingəçevir şəhərlərində yaşayan 42, Quba, Qusar, Xaçmaz, Dəvəçi, Xızı, Siyəzən, Zaqatala, Balakən, Şəki, Qax, Ucar, Zərdab, Agdaş, Göycay, İsmayıllı, Mərəzə, Şamaxı, Hacıqabul, Sabirabad, Saatlı, Masallı, Lənkəran, Yardımlı, Lerik, Biləsuvar, Astara, Cəlilabad, Salyan, İmişli, Qəbələ, Kürdəmir, Agsu, Neftçala rayonlarında yaşayan 1080 nəfər itkin düşmüş şəxslərin ailələrinə baş çəkmiş və onlardan itkin düşmüş şəxsə aid məlumatlar toplanaraq anketlərə qeyd olunmuş və BQXK-ya təhvil verilmişdir.

### Nailiyyətlər:

Ümümilikdə, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin könüllüləri 2010 -cu il ərzində 1302 itkin düşmüş şəxsə aid sorğu anketi toplamış və BQXK-ya təhvil vermişdir.

# Miqrasiya

## Məqsəd:

Məcburi köçkün uşaqların ümumi mənəvi pisixoloji səviyyəsini artırmaq, imkansız, zavallı köçkün ailələrə humanitar yardım etməklə onların həyat şəraitini yaxşılaşdırmaq.

## Fəaliyyət

2010-cu il may ayının 25-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti 1 iyun "Uşaqların Beynəlxalq Müdafiəsi



Günü" münasibətilə silsilə tədbirlər həyata keçirib. Belə tədbirlər Cəmiyyətin daxili imkanları hesabına keçrilir və əsasən məcburi köçkün,valideyin himayəsindən məhrum olmuş, fiziki, əqli qüsurlu uşaqlar üçün müxtəlif əyləncə, idman və rəngarəng konsert proqlamlarının təşkili ilə müşayiət olunub. Belə tədbirlər onları bir qədər öz problemlərini unudaraq, uşaqlıq illərini daha sevinclə yaşamasına ümidləndirir. AzQAC-in Miqrasiya şöbəsi tərəfindən "Uşaqların Beynəlxalq Müdafiəsi Günü" münasibətilə Dənizkənarı Milli Parkda Bakı şəhərində məskunlaşmış məcburi köçkün uşaqlar üçün tədbir keçrilmişdir. Tədbirdə 60 uşaq, AzQAC-in 5 fəal könüllüsü və əməkdaşı, həmçinin Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndəsi iştirak etmişdir. Dənizkənarı Milli Parkda gəzintidən sonra tədbirdə iştirak edən uşaqlar üçün "Mirvari "kafesində nahar süfrəsi təşkil olunmuşdur. Parkda yerləşən atraksionlarda uşaqlar təmənnasız olaraq əylənmişlər.

2010-cu ilin mart ayında Azərbaycan Qızıl Aypara Cəmiyyəti Novruz bayramı münasibətilə tənha və kimsəsizlərə yardım göstərmişdir. Belə ki, Cəmiyyətin Miqrasiya və Fandreyzinq şöbələrinin əməkdaşları, "Azersun Holdinq"in dəstəyi ilə Ağdam rayonunun Quzanlı qəsəbəsində məskunlaşmış məcburi köçkün ailələrinə zəruri ərzaq bağlamaları paylamışdır. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin miqrasiya şöbəsinin müdiri Məmməd Kətanov və Cəmiyyətin Ağdam rayon bölməsinin sədri Firuzə Əliyevanın iştirakı ilə keçrilən tədbir köçkünlər tərəfindən rəğbətlə qarşılanmışdır

2010-cu ilin sentyabr ayında Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı Missiyasının Rəhbərliyi ilə ikitərəfli görüş keçrilmişdir. Görüşün əsas məqsədi Miqrasiya problemlərinin həlli istiqamətində fəaliyyət göstərən hər iki təşkilatın bu sahə üzrə rəhbərlərinin tanışlığı və gələcək əməkdaşlıq üzrə müzakirələrin aparılması olmuşdur. Görüş zamanı ilk olaraq Azərbaycan Qızıl Aypara Cəmiyyətinin



nümayəndələri Milli Cəmiyyətin uzun illər boyu və hal-hazırda da Miqrasiya məsələləri üzrə həyata keçirdiyi ənənəvi layihələrdən bəhs edilmişdir. Belə layihələrdən məcburi köçkün soydaşlarımız üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Beynəlxalq Qızıl



Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiyası, Beynəlxalq Qızıl Xaç Komitəsinin hər il müntəzəm olaraq həyata keçirdiyi düşərgə layihələri misal göstərilmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 90 illik yubileyi ilə əlaqədar olaraq Cəmiyyətin Miqrasiya və digər şöbələri birgə, mart ayının 10-da silsilə tədbirlər həyata keçirmişlər. Belə tədbirlərdən biri də, AzQAC-ın Texniki və İqtisad Universiteti bölmələri ilə birgə futbol yarışının təşkilidir. Yarışın sonunda iştirak edən komandalara kuboklar verilmişdir. Tədbiri 100-dən azarkeş tamaşaçı izləmişdir. Həmin tədbirdə 10 fəal könüllü və Cəmiyyətin əməkdaşları iştirak etmişlər. Bu qəbil tədbirlər gənclərin bədən tərbiyəsi və idmanın inkişafına maraqlarını daha da artırır və onların sağlam həyat tərzi keçirmələrinə kömək edir.

## Nailiyyətlər:

Məcburi köçkün uşaqların QXQA hərakatı haqqında bilikləri artırılmış və mənəvi sarsıntıları qismən də olsa aradan qaldırılmışdır. Daha çox ehtiyacı olan imkansız zavallı məcburi köçkün ailəsinin üzləşdikləri ərzaq problemləri qismən həll olunmuşdur.

## Problemlər:

Maliyyə vəsaitinin az olması səbəbindən belə layihələrin davamlılığının təmin edilməməsi.

# Axtarış Xidməti

## Məqsəd:

Bir-birindən ayrı düşmüş ailə üzvlərinin iztirablarını azaltmaq, psixoloji köməklik göstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazımi məlumatları ailə üzvləri arasinda mübadilə etmək və həmcinin, bir-birinə qovuşdurmaq məqsədi daşıyır.

## Fəaliyyət

- Mütəmadi olaraq ərizəçilərin qəbulunun təşkili:

- II Dünya müharibəsi zamanı itkin düşənlərin axtarışı :



- Migrasiya ilə bagli axtarış:

- Axtarış və sosial problemlərin həlli ücün hüquqi məsləhətlərin verilməsi.

## KİV ilə əməkdaşlıq

2010-cu il ərzində "Vışka" qəzetində Axtarış Xidmətinin fəaliyyətini işıqlandıran 5 məqalə çap edilmişdir.

2010-cu ilin yanvar, mart və oktyabr aylarında Azərbaycan Dövlət Radiosuna AX-nin fəaliyyəti və görülmüş işlər haqqında müsahibə verilmişdir.

Rusiyanın "ORT" telekanalında yayımlanan "Jdi menya" verilişi ilə əməkdaşlıgımız telefon və elektron poçt vasitəsilə davam etdirilmişdir.

«Yeni Təfəkkür» qəzetində fəaliyyətimiz işıqlandırılmışdır.

### Dövlət strukturları ilə əməkdaşlıq

• Az.QAC Axtarış Xidmətinin birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları:

Daxili İşlər Nazirliyi
Milli Təhlükəsizlik Nazirliyi
Nazirlər Kabineti nəzdində Dövlət Arxiv İdarəsi
Bakı İcra Hakimiyyəti
Respublika Prokurorluğu
Hərbi Komissarlıq
Qacqınlar üzrə Ali Komissarlıq
Qaçqın və Məcburi Köçkünlərin işi üzrə Dövlət Komitəsi
Telefon – məlumat xidməti

### Daxili görüşlər.

İl ərzində Ətraflı Məlumatların Toplanması proqramının koordinatoru tərəfindən keçirilmiş görüşlərdə AX-i iştirak etmişdir. ƏMT proqramına dair qaynar telefon xətti işini davam etdirir. Bu il ərzində 119 telefon zəngləri qəbul edilmişdir. Zənglər daxil olduqca elektron baza yenilənmişdir.

### Regional Mərkəzlər / yerli bölmələr

İl ərzində Bakı, Sumqayıt, Lənkəran, Mingəçevir, Sabirabad, Gəncə Regional Mərkəzlərinin sədrləri ilə dəfələrlə görüşlər keçirilmiş, sorğu blankları mütəmadi olaraq paylanılmışdır. Həmçinin, bir çox yerli bölmələrinin sədrləri ilə axtarış işləri ilə bağlı telefon əlaqəsi yaradılmış, məsləhətlər verilmişdir.

### 2010-cu ildə Regional Mərkəzləndən daxil olan sorğular

Sumqayıt RM – 2
Lənkəran RM – 1
Gəncə RM - 3
Sabirabad RM - 2
Mingəçevir RM - 2
Statistik hesabat
2010-cu il ərzində daxil olmuş sorğular
Həll olunmuş işlər - 73
Azərbaycan daxili - 36
Xaricdə - 37

| | |
|---|---|
| Miqrasiyaya dair axtarış | 43 |
| II Dünya müharibəsi zamanı itkin düşənlərin axtarışı | 5 |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 7 |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | 7 |
| **Cəmi:** | **62** |

Ailə məktubu 11
2010-cu il ərzində baglı işlər – 81

| | | |
|---|---|---|
| Miqrasiya nəticəsində itkin düşənlərin axtarışı | 30 (mənfi) | 15 (müsbət) |
| II Dünya müharibəsi zamanı itkin düşənlərin axtarışı | 12 | 1 |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 1 | 1 |
| Migrasiyaya dair sənədlərin axtarışı | 4 | 2 |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | 5 | 5 |
| Repressiya | 1 | 1 |
| Cəmi: | 53 | 24 |

Ailə məktubu: 1 (geri qaytarılıb), 2 (ünvana catdırılıb)

# Maliyyə

Gəlirlərin təhlili göstərir ki, AzQAC üzrə ümumi gəlirlərin də 2009-cu ilə nisbətən artım tendensiyası müşahidə olunmaqdadır. Artım keçən ilə nisbətən həm büdcədən ayrılmış 90 İllik yubileylə bağlı xərclərdə, həm də Beynəlxalq Federasiyanın dəstəyi ilə həyata keçirilmiş DREF və AH1N1 pandemiya proqramları hesabına olmuşdur.

Bununla yanaşı, qeyd etməliyik ki, Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən maliyyələşdirilən tədbirlər 2010-ci ildə 92 887,89 manat təşkil etmişdir ki, bu gəlirlərin 4,5 %-dir.

Hesabat dövründə əvvəlki ilə nisbətən dövlət büdcəsi hesabına maliyyələşmənin həcmi artmışdır və gəlirin 32,6 %-ni təşkil edir. Artım 2009-cu ilə nisbətən 70 000 manat təşkil etmişdir.

Hesabat məlumatlarına görə respublikada daxili gəlirlər, xüsusilə rayon (şəhər) bölmələrində yığılan üzvlük haqqlarının həcmi 2009-cu ilə nisbətən 292 849 manat artmışdır. Rayon (sahə) bölmələrində gəlirlərin artması nəticəsində, İcra Katibliyinə köçürülən vəsaitlər üzrə maliyyə planlarını yerinə yetirən təşkilatların sayı azalmışdır.

Bununla yanaşı, 2009-cu ildə üzvlük haqqlarının yığılması ilə maliyyə təsərrüfat fəaliyyəti zəif olan Xaçmaz, Xızı, Qubadlı, Hacıqabul, Saatlı, Cəlilabad, Lerik, Yardımlı, Gəncə, Samux, Xanlar, Daşkəsən, Bərdə, Tər-Tər RK-nin fəaliyyətlərində müsbət dönüş müşahidə olunmuşdur.




Beynəlxalq Federasiyanın Azərbaycan Nümayəndəliyindən, Beynəlxalq Qızıl Xaç Komitəsindən daxil olmuş vəsaitlər 100% həmin donorlarla razılaşdırılmış proqramların yerinə yetirilməsinə yönəldilmişdir.

AzQAC hesabına edilən yardımlar ildən ilə artır və 2010-cu ildə 415 469 manat təşkil etmişdir ki, bu da cəmiyyətin ümumi xərclərinin 22,6%-nə bərabərdir.

Yerli Bölmələr də zavallı insanlara yardımların səviyyəsini qaldırmışdır. Belə ki, son illər yerli bölmələrdə mühasibatlığı və hesabat səviyyəsini gücləndirmək məqsədilə Az QAC-ın yerli bölmələrində maliyyə işlərinin qurulmasına dair təlimat hazırlanmış və yerli bölmələrlə müvafiq görüşlər keçirilmişdir.

2010-cu il ərzində bütün regional mərkəzləri əhatə edən yerli bölmələrdə mühasibatlıq işlərinin qurulmasına dair treninqlər keçirilmişdir. Eləcə də, 2010-cu il ərzində bütün yerli bölmələrin əksəriyyətində audit yoxlaması keçirilmiş və yoxlamanın nəticələri üzrə analiz aparılaraq maliyyə-təsərrüfat fəaliyyətləri barədə rəy verilmişdir.

## Dioqram 5. Gəlirlər (2010-cu il üçün)

| | manatla | faiz |
|---|---|---|
| **Gəlirlər** | 2 108 566,89 | 100,0% |
| Beynəlxalq Federasiya, (DREF, A H1N1 pandemiya) | 333 252,00 | 15,8% |
| BQXK (BQX/QAH yayımı, Axtarış, ƏMT, Silahlara Qarşı Mübarizə) | 92 887,89 | 4,4% |
| Su layihəsi (Yaponiya səfirliyi) | 50 440,00 | 2,4% |
| Büdcə vəsaiti | 670 000,00 | 31,8% |
| Üzvlük haqları | 616 210,00 | 29,2% |
| Təhlükəsiz Oyun Meydançası layihəsi (Almaniya QX ilə ikitərəfli) | 41 600, 00 | 2,0% |
| Fandreyzinq (ianə qutularından), təşkilatlardan və ayrı - ayrı şəxslərdən | 264 596,40 | 12,5% |
| Digər gəlirlər | 39 580,60 | 1,9% |




## Dioqram 6. Xərclər (2010-cu il üçün )

| | manatla | faiz |
|---|---|---|
| **Xərclər** | 2 812 749,69 | 100,0% |
| Beynəlxalq Federasiya | 333 252,00 | 11,8% |
| BQXK | 92 887,89 | 3,3% |
| Büdcə vəsaiti | 670 000,00 | 23,8% |
| Az QAC hesabına olan humanitar aksiyalar (respublika üzrə) | 415 469,90 | 14,8% |
| Təsərrüfat xərcləri, büdcə ilə hesablaşmalar, Əmək haqqı | 248 800,80 | 8,8% |
| Digər xəclər | 78 839,10 | 2,8% |
| AzQAC könüllülərinin il ərzində göstərdikləri xidmətlər | 973 500,00 | 34,6% |

